# Qarabağ Azərbaycandır!

Olimpiya dünyası
www.olimpiyadunyasi.az
Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti
№ 11 (1458), 27 oktyabr - 2 noyabr 2020-ci il
Qəzet 2001-ci ildən çıxır.

# Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib



Oktyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.

Prezident İlham Əliyevin müraciəti

- Əziz həmvətənlilər.

Bir aya yaxındır ki, ikinci Qarabağ müharibəsi davam edir. Bu müharibə xalqımız üçün Vətən müharibəsidir. Biz Vətən torpaqlarını işğalçılardan azad edirik. Bu müddət ərzində Şanlı Azərbaycan Ordusu bir çox yaşayış məntəqələrini düşməndən azad edibdir. Biz döyüş meydanında tarixi ədaləti bərpa edirik. Çünki Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub. Biz Qarabağ tarixini yaxşı bilirik və bu tarixi dünya ictimaiyyətinə çatdırmaq üçün son illər ərzində böyük işlər görülübdür. Çünki 1990-cı illərin əvvəllərində Azərbaycan haqqında, ümumiyyətlə, dünyada o qədər də böyük təsəvvür yox idi. Ancaq bir çox ölkələrdə fəaliyyət göstərən erməni lobbi təşkilatları həm bölgənin tarixi ilə bağlı, həm münaqişənin tarixi ilə bağlı yanlış məlumat ötürərək dünyada, dünyanın ictimai fikrində təhrif edilmiş təsəvvür yarada bilmişlər. Məhz buna görə, torpaqlarımız işğal altına düşə-düşə bizə qarşı sanksiyalar tətbiq edilmişdir və bu sanksiyalar bu günə qədər qüvvədədir.

*(ardı 2-ci səhifədə)*

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Ali Baş Komandan, Prezident İlham Əliyev Qubadlı şəhəri və Qubadlı rayonunun bir neçə kəndinin işğalçılardan azad olunmasında fərqlənmiş hərbi birlik komandirləri Yaşar Həsənovu və Zaur Quliyevi təbrik edib. Dövlətimizin başçısı onlara Vətən uğrunda gedən döyüşlərdə yeni uğurlar arzulayıb. Tapşırıb ki, onun təbriklərini və təşəkkürlərini bütün şəxsi heyətə çatdırsınlar.

## *Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin azad edilməsi münasibətlə xalqımızı təbrik edib*

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib.

AZƏRTAC həmin paylaşımı təqdim edir:

Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndləri və Qubadlı şəhəri işğaldan azad edildi! Bu münasibətlə bütün xalqımıza səmimi təbriklərimi çatdırıram! Hər bir yeni qələbənin əldə edilməsi əsgərlərimizin qəhrəmanlığı, şücaəti, cəsarəti, igidliyi və mətanəti sayəsində mümkün olur. Onların hər birinə hədsiz dərəcədə minnətdaram! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!



## Çingiz Hüseynzadə: Azərbaycan ərazi bütövlüyünün təmin olunması üçün mübarizə aparır

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vada Cuniçi ilə görüşüb.

Görüşdə MOK-un vitse-prezidenti Ç.Hüseynzadə Azərbaycanın hazırda torpaqlarının azadlıq müharibəsi dövrünü yaşadığını deyib.

Bildirib ki, 30 ildir münaqişənin həllinə dair məsələ beynəlxalq təşkilatların masasının üstündə idi. Danışıqlar prosesində fəal iştirak edən Azərbaycan üçün sülh prosesi "Qarabağ Ermənistandır və nöqtə" ifadəsi ilə bitdi.

"Biz ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün mübarizə aparırıq", - deyən Ç.Hüseynzadə Azərbaycanın məsələni beynəlxalq hüquq və prinsiplər çərçivəsində həll etdiyini bildirib. Dünya ictimaiyyətinin Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini diqqətə çatdıran MOK rəsmisi Yaponiya hökuməti və xalqının ədalətin və sülhün tərəfində olduğunu da qeyd edib.

Səfir Yaponiya ilə Azərbaycanın strateji tərəfdaş olduğunu məmnunluqla vurğulayaraq ölkələrimiz arasındakı münasibətlərin belə səviyyəyə çatmasında iki dövlət arasında səmərəli əlaqələrin mühüm rolunu qeyd edib. O, sülhsevər dövlət olan Yaponiyanın məsələnin beynəlxalq hüquq normaları çərçivəsində həll olunacağına ümid etdiyini bildirib. Tərəflər Yaponiya-Azərbaycan arasında əlaqələrin daha da inkişafı üçün iqtisadi, siyasi və digər sahələrlə yanaşı, idman əlaqələrinin də inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

Görüşdə bundan sonra Tokio-2020 Yay Olimpiya Oyunları çərçivəsində aparılacaq qarşılıqlı əməkdaşlıq imkanlarına dair müzakirələr də aparılıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva: Bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır

Səh. 4

## Komandamız Budapeştə 1 qızıl və 2 bürünc medal qazanıb

Macarıstanın paytaxtı Budapeştdə cüdo üzrə "Böyük dəbilqə" turniri keçirilib. Pandemiyaya görə yaranan uzun fasilədən sonra keçirilən ilk beynəlxalq yarışda 61 ölkəni təmsil edən 405 (254 kişi, 251 qadın) idmançı mübarizə aparıb. Tokio Olimpiya Oyunlarına lisenziya xalları verən nüfuzlu yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Turnirdə 17 (14 kişi, 3 qadın) idmançı ilə təmsil olunan komandamız 1 qızıl və 2 bürünc medala sahib çıxıb.

Komandamızın aktivinə qızıl medalı Olimpiya mükafatçımız Rüstəm Orucov (73 kq) yazdırıb. Orxan Səfərov (66 kq) və Məmmədəli Mehdiyev (90 kq) isə "Böyük dəbilqə" turnirinin bürünc medalına sahib çıxıb. Digər idmançılarımızdan Gültac Məmmədəliyeva (52 kq) bürünc medal uğrunda təsəlliverici görüşdə uduzaraq, 7-ci yeri tutub. Beləliklə, bu nəticə ilə Azərbaycan komandası 4-cü yerdə qərarlaşıb. İdmançılarımız həm də Tokio Olimpiya Oyunlarına lisenziya xalları qazanıblar.

Qeyd edək ki, yarışdan sonra komandamızın üzvü Rüstəm Orucov qazandığı medalı şəhidlərimizə həsr edərək mükafatını Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna köçürəcəyini bildirib.

Onu da qeyd edək ki, hər üç mükafatçımız həlledici görüşdən sonra qürurla əsgər salamı verib.

## *Gəncə terrorunda "qanadı sınmış" mələklər*

Səh. 5

## Zəngilan 27 ildən sonra işğaldan azad olundu

Səh. 6

## *"Vətən uğrunda canını fəda etmək şərəfdir, o, hər kəsə nəsib olmur"*

Səh. 7

# Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib

*(əvvəli 1-ci səhifədə)*

Müstəqilliyimizin ilk mərhələsində Amerika Konqresi Azərbaycana qarşı sanksiya tətbiq edib ki, guya Azərbaycan Ermənistana qarşı təcavüz edir və bu sanksiyalar bu günə qədər qüvvədədir, təsəvvür edin. O vaxt Azərbaycan diplomatiyası erməni yalanının qarşısına heç bir arqument gətirə bilməmişdir. Son illər ərzində ardıcıl fəaliyyət nəticəsində biz dünya ictimaiyyətini Qarabağın tarixi ilə bağlı, münaqişənin tarixi ilə bağlı kifayət qədər məlumatlandırmışıq. Görülən bütün bu işlər, bax, bu gün bizə kömək göstərir, çünki artıq dünyada bu məsələ ilə bağlı daha obyektiv fikir var, daha obyektiv təsəvvür var. Məhz bizim yorulmaz səylərimiz nəticəsində buna nail ola bilmişik. Mən deyəndə ki, biz tarixi ədaləti bərpa edirik, tam haqlıyam. Mən Münhen təhlükəsizlik konfransında bütün dünyaya və bu, canlı formatda aparılmış diskussiya əsnasında sübut edə bilmişəm ki, bu, bizim tarixi torpağımızdır. XIX əsrin əvvəllərində Kürəkçay sülh anlaşması haqqında məlumat vermişdim. Dünyada bu anlaşma haqqında, ümumiyyətlə, geniş ictimai fikirdə heç bir məlumat yox idi. Əfsuslar olsun ki, hətta Azərbaycanda bu müqavilə haqqında geniş məlumat yox idi. Kürəkçay sülh müqaviləsini Qarabağ və Şuşa xanı İbrahimxəlil xan imzalamışdır, digər tərəfdən Çar Rusiyasının generalı imzalamışdır. O müqavilə internetdə var, hər kəs baxa bilər. Əminəm ki, mənim bu sözlərimdən sonra indiki döyüş meydanında vəziyyəti maraqla izləyən geniş beynəlxalq auditoriya gedib bu saytlara girəcək, baxacaq görəcək ki, o müqavilədə erməni xalqı haqqında bir kəlmə də yoxdur. Çünki erməni xalqı o vaxt orada yox idi. Erməni xalqı Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələrindən sonra bizim dədə-baba torpaqlarımıza gətirildi. Məqsədyönlü şəkildə gətirildi və ölkəmizin ən dilbər guşələrindən biri olan Qarabağda yerləşdirildi, onlara şərait yaradıldı. Məqsəd aydın idi - imperiyanın yeni torpaqlarında dini tərkibi dəyişdirmək, müsəlmanları öz dədə-baba torpaqlarından qovmaq, didərgin salmaq və yeni reallıq yaratmaq idi. Bu idi məqsəd və əfsuslar olsun ki, bu məqsədə çatdılar. Ondan sonra erməni əhalisi qonşu ölkələrdən kütləvi qaydada gətirildi, Dağlıq Qarabağ bölgəsində, azərbaycanlıların dədə-baba torpaqlarına yerləşdirildi və ermənilər onlara xas olan xasiyyəti nümayiş etdirərək yavaş-yavaş bizim bütün torpaqlarımıza sahib çıxmağa başladılar. XX əsrin əvvəllərində bolşevik inqilabından sonra böyük təhlükə var idi ki, bolşevik hakimiyyəti Dağlıq Qarabağı Ermənistana verəcək. Qafqaz bürosunun protokolları var, 1921-ci ilin iyul ayında. Qafqaz bürosunun protokollarına baxmaq kifayətdir və belə təhlükə var idi. Ancaq hesab edirəm ki, Nəriman Nərimanovun və reallığı düzgün qiymətləndirən digər şəxslərin səyləri nəticəsində buna nail ola bilmədilər. Qafqaz bürosunun protokollarında göstərilir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Bütün bu illər ərzində saxta erməni alimləri, ermənilərə havadarlıq edən dairələr sübut etməyə çalışırdılar ki, Stalin Dağlıq Qarabağı Ermənistandan ayırıb Azərbaycana veribdir. Yalandır! Açın, baxın Qafqaz bürosunun protokoluna, orada deyilir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın! Bu, bir daha onu təsdiqləyir ki, bu, bizim torpağımızdır. Əfsuslar olsun ki, ondan sonra Dağlıq Qarabağ muxtar vilayəti yaradıldı, o bölgəyə xüsusi status verildi. Amma onu da bildirməliyəm ki, bu, respublika deyildi, vilayət idi. Yəni, orada daha aşağı səviyyəli bir özünüidarəetmə mexanizmi mövcud idi. İndi tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, orada yaşayan ermənilər böyük hüquqlara, imkanlara malik idi.

Sovet vaxtında, münaqişəyə bir neçə il qalmış separatizm meyilləri geniş vüsət almışdı. Halbuki bunun üçün heç bir əsas yox idi. Dağlıq Qarabağ muxtar vilayətinin rəhbər orqanı olan büroda 9 üzv var idi. Onlardan 8-i erməni idi, 1-i azərbaycanlı, o da Şuşa rayon Kommunist Partiyasının birinci katibi. Dağlıq Qarabağın 1-ci katibi, hökumət başçısı, parlament başçısı ermənilər idi. Nə istəyirdilər? Nə qədər Azərbaycan investisiya qoyub o bölgəyə, dəmir yolu çəkilib 1970-ci illərdə, Sərsəng su anbarı tikilib 1970-ci illərdə, Madagiz, - indi adını mən bərpa etmişəm, - Suqovuşan su anbarı tikilib. Bütün bunlar Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına edilən investisiyalardır. Amma onlar nankorluq göstərdilər, vəziyyətdən istifadə etdilər, Moskvada anti-Azərbaycan rəhbərliyinin mövcudluğundan istifadə etdilər və separatizm meyilləri baş qaldırdı. Ondan əvvəl nə etdilər? Onlar ondan əvvəl hazırlıq işləri görürdü və əsas hazırlıq işlərinin hədəfində Heydər Əliyev dayanmışdı. Çünki yaxşı başa düşürdülər ki, Heydər Əliyevin varlığı, sovet rəhbərliyində onun böyük nüfuza malik olması onların planlarını alt-üst edirdi. Ona görə Ermənistandan, digər yerlərdən, əfsuslar olsun ki, milli satqınlar Azərbaycandan Moskvaya kütləvi surətdə anonim məktublar göndərirdilər. Qəsdən şər-böhtan kampaniyası aparılırdı ki, Heydər Əliyev amili aradan qaldırılsın. Heydər Əliyev bütün vəzifələrdən gedəndən sonra 2 həftə keçməmiş baş qaldıran erməni separatçılar məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın, Ermənistana verilsin və bizim xalqımızın bəlaları o gündən başladı. Ondan sonra Dağlıq Qarabağda qanunsuz xüsusi idarəetmə komitəsi yaradıldı, qatı ermənipərəst bir insan ora rəhbər təyin edildi və faktiki olaraq Dağlıq Qarabağın Azərbaycandan qoparılması üçün zəmin yaradıldı. O vaxtkı Azərbaycan rəhbərliyi əfsuslar ki, sadəcə olaraq bütün bu təhlükəli hadisələrə tamaşa edirdi. Səs qaldıra bilmədi, cəsarət göstərmədi, sadəcə olaraq başını salıb aşağı Moskvadan nə deyirdilər onu da edirdi. Çünki o vaxt Azərbaycana rəhbərlik edən adamlarda bir qram Azərbaycan qanı yox idi. Azərbaycanlı sayılsalar da, bir qram milli ruh yox idi, kosmopolit insanlar idi, heç Azərbaycan dilində düz-əməlli danışa bilmirdilər. Dağlıq Qarabağın tarixi budur və ondan sonra Azərbaycana qarşı genişmiqyaslı hərbi əməliyyatlar başlamışdır, torpaqlarımız işğal altına düşmüşdür. 1992-ci ilin may ayında Şuşa və Laçının itirilməsi, 1993-cü ilin aprelində Kəlbəcərin işğal altına düşməsi Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaratdı. Halbuki bu bağlantı yox idi. Dağlıq Qarabağ muxtar vilayətinin Ermənistan Respublikası ilə sərhədi yox idi.

Bax, bu faciəvi hadisələr sanki yeni reallıq yaradırdı. Ondan sonra bu məsələni beynəlxalq vasitəçilər öz üzərlərinə götürdülər, 1992-ci ildə Minsk qrupu yaradıldı. Minsk qrupunun fəaliyyəti göz qabağındadır. Minsk qrupuna həmsədrlik edən ölkələr müəyyən müddətdən sonra faktiki olaraq bütün səlahiyyətləri öz əllərində cəmləşdirdilər, faktiki olaraq bu məsələni inhisara götürdülər, faktiki olaraq Minsk qrupu bir qrup kimi iflic vəziyyətə düşdü və üç ölkə bu məsələ ilə məşğul olmağa başlamışdır. Amma bunun nəticəsi oldumu? Olmadı. Bizim üçün olmadı, Ermənistan üçün oldu. Ermənistan elə bu nəticəni istəyirdi ki, daim danışıqlar getsin, daim bizim başımızı aldatsınlar, dondurulsun bu məsələ, əbədi qalsın əsarət altında bizim torpağımız, əbədi qalsın işğal altında bizim torpağımız. Bəs, nədir Minsk qrupunun fəaliyyəti? İşğalçıya təzyiq edə bilibmi? Yox! Təzyiq etmək istəyibmi? Yox! Dəfələrlə mən onların qarşısında məsələ qaldırmışdım: əgər məsələnin həllini görmək istəyirsinizsə sanksiyalar tətbiq edin Ermənistana. Sizin əlinizdədir. Siz BMT Təhlükəsizlik Şurasının daimi üzvlərisiniz, istənilən məsələni həll edə bilərsiniz. Xüsusilə bu ölkələrin rəsmi nümayəndələri deyirlər ki, bu məsələdə onların fikri üst-üstə düşür. O da maraqlı bir məsələdir. Necə olur, bütün başqa məsələlərdə - nüvə silahları ilə bağlı, Yaxın Şərqdə olan vəziyyətlə bağlı, Asiyada olan vəziyyətlə bağlı, Avropada olan vəziyyətlə bağlı bunların maraqları daban-dabana ziddir. Hansı başqa məsələdə bunların maraqları üst-üstə düşür? Heç bir məsələdə. Ancaq Dağlıq Qarabağ məsələsində. Nə üçün? Hər kəs başa düşür. Çünki bu dondurulmuş vəziyyət təbii ki, bu ölkələr arasında bizdən başqa hər kəsi qane edirdi, ilk növbədə, Ermənistanı qane edirdi.

Ermənistan bu torpaqlarda qanunsuz məskunlaşma aparır. Bir söz deyən var? Yoxdur! Bu, cinayətdir, beynəlxalq cinayətdir, Cenevrə konvensiyalarına ziddir. Bir söz deyən var onlara ki, sən niyə qanunsuz məskunlaşma aparırsan? Özü də bunu nümayiş etdirirsən. Ərəb ölkələrindən erməniləri gətirirsən, yerləşdirirsən, o cümlədən Şuşada. Bir söz deyən yoxdur. Bu, nə deməkdir? O deməkdir ki, davam elə, gətir, nə qədər istəyirsən gətir, bu torpaqları erməniləşdir, Azərbaycan mədəni irsini sil. Bu idi mesaj. Yoxsa, bu üç ölkə məgər imkanlara sahib deyil ki, təcavüzkara öz yerini göstərsin? İstəmirdilər. Bu reallıq onları qane edirdi.

Ona görə, Minsk qrupunun fəaliyyətinə başqa qiymət vermək olmaz. Elə bil, bizi bu vəziyyətlə barışmağa sürükləyirdilər ki, yeni reallıqlar yaranıbdır, siz də reallıqlarla hesablaşmalısınız. Biz yeni bir reallıq yaratmışıq. İndi hər kəs yeni reallıqla hesablaşmalıdır. Amma biz nəyi görürük? Biz öz torpaqlarımızı işğalçılardan azad etməyə başlayanda, görün, nələr baş verir. Nə qədər böyük təzyiq göstərirlər Azərbaycana, hər tərəfdən. Əl-ayağa düşdülər. Bəs, nə oldu? İyirmi səkkiz il bu məsələni belə süründürə-süründürə elə bil ki, həll edirdiniz. Gəlib-getmək, orada görüş, burada danışıqlar. Biz bu danışıqlardan boğaza yığılmışıq. Bu düşmənlə nə qədər danışıqlar aparmaq olar? Özü də düşmən harınlaşır, azğınlaşır, qudurur və bizə deyirlər ki, yox, ancaq sülh yolu ilə, bunun hərbi variantı yoxdur. Kim deyir ki, yoxdur? Bəs, indi məsələnin hərbi variantı deyilmi? Biz nə edirik? Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetiririk. Halbuki bu, BMT Təhlükəsizlik Şurasının vəzifəsidir. Biz təkbaşına icra edirik. Biz yeni reallıq yaratmışıq. Hesablaşın! Ancaq nə görürük? Orada görüş, burada görüş, atəşkəs belə oldu, atəşkəsi kim pozdu.

Deməli, bunların bütün fəaliyyəti indi Ermənistanı xilas etməkdir. Təcavüzkarı, Xocalı soyqırımını törədəni, Gəncəni Ermənistan ərazisindən ballistik raketlərlə bombalayanı. Budur, bu fəaliyyət.

Atəşkəs rejiminə gəldikdə, ayın 10-da birinci dəfə atəşkəs qüvvəyə mindi. Mənim mövqeyim elə idi ki, bu, humanitar xarakter daşımalıdır və həlak olanların cəsədlərinin, girovların, əsirlərin dəyişdirilməsi üçün biz buna razılıq vermişik. Ancaq Ermənistan bir gün keçməmiş bu atəşkəsi kobudcasına pozdu, özü də namərd şəkildə, gecə vaxtı Gəncəni bombaladı. Ondan sonra oktyabrın 17-də yeni atəşkəs elan olundu. Yenə də iki dəqiqədən sonra Ermənistan bunu pozdu. İndi bu gün səhər saat 8-dən yeni bir təklif verildi. Ancaq səhər 9-da artıq mən maraqlandım, bir neçə dəqiqə keçmiş atəşkəs Ermənistan tərəfindən pozuldu, Tərtər rayonuna yenə də atəş açıldı. Ancaq mən yenə də göstəriş vermişəm, hələ ki, Azərbaycan Ordusu özünü təmkinlə aparsın, təxribata uymasın. Mənim mövqeyim xalqıma bəllidir. Bu məsələ öz həllini tapmalıdır, ya hərb yolu ilə, ya sülh yolu ilə. Mən təklif etmişəm ki, əgər istəyirsinizsə sülh yolu ilə həll olunsun, yaxşı, biz dayandıraq. Ancaq dərhal bizə deyilməlidir ki, Ermənistan bizim torpaqlarımızdan çıxır. Cədvəl verilməlidir - neçə gündən sonra bu rayondan, neçə gündən sonra bu rayondan, neçə gündən sonra bu rayondan çıxmalıdırlar. Cədvəl verilməlidir. Ermənistan bu cədvəli verib? Verməyib. Belə olan halda əgər atəşkəs davam edəcəksə və yenə də məsələ dondurulmuş vəziyyətdə qalacaqsa bu, bizi qane edə bilməz. Bu, birincisi.

İkincisi, bizdə dəqiq məlumat var ki, Ermənistan döyüş meydanında artıq bizim qabağımızda diz çöküb və sadəcə olaraq, atəşkəsdən istifadə edib öz qüvvələrini yenə də səfərbər etmək istəyir, yenə də silahlanmaq istəyir və bizə qarşı yeni işğalçılıq siyasəti aparmaq istəyir. Belə məlumatlar var və əfsuslar olsun ki, son bir ay ərzində Ermənistana kütləvi surətdə silahlar göndərilir, müxtəlif növ silahlar. Bütün siyahılar bizdə var. Onların bəziləri bizim mətbuatda da dərc edilib. Bütün siyahı var, nə vaxt, hansı təyyarə gəlib, haraya gəlib, nəyi gətirib, necə boşaldıb, haraya göndərilib? Yaxşı, atəşkəsi istəyən niyə silah göndərir Ermənistana? Axı, Ermənistan diz çöküb, artıq onun başından elə vurmuşuq ki, ayıla bilmir. Ermənistanın baş naziri - Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edən, özünü böyük sərkərdə kimi aparan indi yıxılıbdır onun-bunun ayağının altına kömək istəyir, imdad diləyir, özünü alçaldır, xalqını alçaldır. Yaxşı, silah verməyin qurtaraq da. Verməyin. Bizə kim verir? Heç kim vermir. Verməyin. İstəyirsinizsə qurtarsın, silah verməyin. İki gündən sonra gələcək yalvara-yalvara. Bir tərəfdən atəşkəs deyilir, digər tərəfdən onlara silah göndərilir. Bu, nə məsələdir? Biz buna səssizmi qalacağıq?

Azərbaycan xalqı hər şeyi bilməlidir. Mən Prezident kimi 17 il ərzində hər zaman Azərbaycan xalqına həqiqətləri demişəm, hər zaman. Müntəzəm olaraq xalqa hesabat vermişəm, bütün məsələlərlə bağlı. Bu gün də məlumat verirəm, bəlkə də tam məlumat deyil. Çünki müəyyən diplomatik qaydalar var. Amma nəyi demək mümkündürsə, onu deyirəm, həm Azərbaycan xalqına, həm də bütün dünyaya. Ermənistanı xilas etmək istəyirsinizsə, deyin ki, olsun! Şuşada, Cıdır düzündə sərxoş vəziyyətdə oynayan o təlxək bəyan etsin ki, çıxıram. Yoxsa, gündə beş-altı dəfə dünya liderlərinə zəng etməklə məsələ düzəlməz. Bizim mövqeyimiz dəyişməz olaraq qalır və biz haqqı, ədaləti müdafiə edirik.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib

*(əvvəli 2-ci səhifədə)*

Mən bir məsələni də bildirmək istəyirəm. Münaqişənin həlli üçün hüquqi baza kifayət qədər genişdir. Biz bu bazanı genişləndirmişdik. Bu gün təkcə BMT Təhlükəsizlik Şurasının qətnamələri yox, digər sənədlər mövcuddur. BMT Baş Assambleyası qətnamə qəbul edib, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, digər təşkilatlar. Avropa İttifaqı ilə paraflanmış sənəddə ölkəmizin suverenliyi, sərhədlərimizin toxunulmazlığı və ərazi bütövlüyü haqqında xüsusi müddəa var. Yəni, bu, hüquqi bazadır və bu baza imkan verir ki, bu gün biz döyüş meydanında düşmənə dərs verək, qovaq onları, rədd edək bizim torpaqlarımızdan. Amma baxın, bu yaxınlarda nələr baş verir? Minsk qrupunun həmsədr ölkələri BMT Təhlükəsizlik Şurasının iclasını çağırırlar. Bir dəfə artıq bunu etmişdilər. Orada qəbul edilmiş sənəd görünür ki, onları qane etmədi. Bu dəfə də bir neçə gün bundan əvvəl biz yeni sənədin ortaya çıxmasını gördük, xəbər tutduq. Dərhal biz hərəkətə keçdik və bu sənədin qəbul edilməsinə imkan vermədik. Baxmayaraq ki, üç həmsədr ölkə BMT Təhlükəsizlik Şurasına üzv olan digər ölkələrə böyük təzyiqlər edirdi.

Nə idi bunun məqsədi? Məqsədi çox aydındır, 1993-cü ildə erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması barədə qəbul edilmiş qətnamələr kölgədə qalsın, onlar arxada qalsın, onlar ya qüvvədən düşsün, ya da ki, öz əhəmiyyətini itirsin. Bu idi məqsəd. Bu, nə dərəcədə ədalətlidir? Biz yenə də işğalçıya dəstək göstərilməsi cəhdini gördük. Amma nə oldu nəticədə? Keçmədi. Necə keçmədi? Qoşulmama Hərəkatına üzv ölkələr kişi kimi buna imkan vermədilər, bizə dəstək göstərdilər, sağ olsunlar. Baxmayaraq ki, onlara təzyiq göstərildi, bəlkə də hədələr oldu. Amma durdular kişi kimi bizim arxamızda, necə ki, biz onların arxasında dururuq. Bu, onu göstərir ki, keçməyəcək. Mənim əziz qardaşım, Türkiyə Cümhuriyyətinin Prezidenti dəfələrlə deyib ki, dünya 5-dən böyükdür. Tam haqlıdır. Bax, bu səsvermə onu göstərdi. Birləşdilər, yenə də Ermənistanın maraqlarına cavab verən sənədi ortalığa atdılar, amma keçmədi. Çünki ədalət var. Nə qədər bu ədaləti pozsalar da, nə qədər bu haqqı yerə vursalar da, yenə də ədalət var. Ədalət və beynəlxalq hüquq bizim tərəfimizdədir. Ona görə biz yolumuzu davam edəcəyik. Atəşkəs istəyirlərsə, işğalçı dövlətə desinlər rədd olsun, çıxsın torpaqlarımızdan. Yoxsa axıra qədər gedəcəyik, axıra qədər, sona qədər gedəcəyik. Düşməni bundan sonra da qovacağıq, necə ki, qovuruq, necə ki, qaçır bizim qabağımızdan və qaçacaq. Çünki biz haqlıyıq və biz güclüyük.

Mən son bir neçə il ərzində demişdim ki, dünya artıq əvvəlki dünya deyil. Güc amili ön plana çıxır və bunu biz etməmişik. Baxın, görün indi böyük dövlətlər beynəlxalq hüquqa məhəl qoyurlarmı? Xeyr. BMT Təhlükəsizlik Şurasına məhəl qoyurlarmı? Xeyr. İstədiklərini edirlər, hərə öz yerində, öz tərəfində, biri ora girib, biri bura girib, biri hansısa ərazini bölür. Beynəlxalq hüquqdan əsər-əlamət yoxdur. Biz onda bunu niyə müdafiə etməliyik? Halbuki, biz müdafiə edirik, beynəlxalq hüququn kənarında heç bir addım atmırıq. Ermənistan torpağına girmirik, beynəlxalq birlik tərəfindən tanınmış torpaqlarımızı bərpa edirik. Əgər BMT Təhlükəsizlik Şurasının daimi üzvlər, Minsk qrupunun həmsədrləri bunu edə bilməyiblərsə, çəkilsinlər kənara, mane olmasınlar. Ermənistandan fərqli olaraq biz heç kimdən kömək istəmirik. Mane olmasınlar və Azərbaycan xalqının səbri ilə oynamasınlar. Sabah bu müharibə qurtaracaq, biz istədiyimizə nail olacağıq. Bəs, necə olacaq bizim münasibətlərimiz? Azərbaycan xalqı bu haqsızlığı unudacaqmı? Unutmayacaq. Bunu bir fikirləşsinlər. Azərbaycan indi o dövlət deyil ki, onun maraqlarını kimsə kənara qoya bilər. Xeyr. Gün gələcək, gələcəklər xahişlərlə, təkliflərlə, əməkdaşlıq təklifləri ilə. Bəs, hansı üzlə bizə baxacaqlar? Bu gün bütün imkanları səfərbər ediblər bizə qarşı. Mən bir ay buna dözürdüm, bir ay. Demirdim bunları, yığılmışıq boğaza. Bu, birincisi.

İkincisi, vasitəçi neytral olmalıdır. Neytral deyilsə, getsin öz namizədliyini geri götürsün. Vasitəçi neytral deyilsə, o, vasitəçi ola bilməz. İndi vasitəçi ölkələr gərək yeni bir funksiya fikirləşsinlər, nə ilə məşğul olacaqlar? İndi artıq beş rayonun azad edilməsindən danışa bilməzlər, hanı 5 rayon, bizdədir onların artıq 4-ü. O məsələ artıq getdi, qurtardı getdi. Özümüz götürmüşük - Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı. Bu rayonların böyük hissəsi bizdədir. Keçmiş Hadrut - indiki Xocavənd rayonunun bir hissəsi bizdədir. Ona görə fikirləşsinlər.

Biz danışıqların əleyhinə deyilik. Dünən Amerikada baş verən danışıqlar nəticəsində qərara gəlindi ki, bir neçə gündən sonra Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri Cenevrədə görüşəcəklər. Mən etiraz etmirəm, görüşsünlər. Bu, 28 il ərzində o qədər mənasız görüş olub ki, biri artıq, biri əskik fərq etməz. Mən demək istəmirəm ki, bu görüşə mənasız görüş kimi baxıram. Yox. Biz istəyirik ki, bunun mənası olsun. Amma bu mənə gərək münaqişənin həllini tezləşdirsin. Ermənistanın havadarları, sizə deyirəm: bu saxta dövləti xilas etmək istəyirsinizsə, deyin ki, çıxsın. Bir sözünüzlə çıxa bilər, bir sözünüzlə. Əgər Ermənistana maliyyə, iqtisadi, hərbi, siyasi dəstək verilməsə, onlar ayaq üstə dura bilərmi? Yox. Mən indi Azərbaycan xalqına bəzi məlumatları verəcəyəm, biz onların nə qədər texnikasını məhv etmişik. Hər kəs hesablaya bilər, internetə girə bilər, baxsın o texnikanın qiymətinə və sual versin. Haradandır bu pul kasıb, yoxsul ölkədə? Problemlər içərisində çabalayan bir ölkədə haradandır bu pul? Nə qədər məhv etmişik, yenə də gətirirlər. Eybi yoxdur, gətirsinlər, özləri bilər.

İndiki mərhələdə bizim mövqeyimiz bundan ibarətdir və biz hazırıq ki, bu məsələ hərbi-siyasi yollarla həll olunsun. Amma həll olunsun. Atəşkəs deyiblər, eybi yoxdur, qoy olsun. Ermənistan bunu pozub, hər bir pozuntunu biz qeydə alırıq, hər bir. Tapşırıq vermişəm, qeydə alınır, dərhal ATƏT-in nümayəndəsinə və atəşkəsdə maraqlı olan digər ölkələrə göndərilir ki, baxsınlar, ermənilər atəşkəsi nə qədər pozublar. Bizdə bütün məlumatlar var. Hərbi-siyasi həll yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsini reallaşdırmalıdır.

O ki qaldı, bizim dədə-baba torpaqlarımıza 200 il bundan əvvəl köçürülmüş ermənilərin gələcəyinə, mən demişəm ki, onlar da bizim vətəndaşlarımızdır. Onların da canı bu xuntadan qurtarılmalıdır. Əgər özləri canlarını qurtara bilmirlərsə, biz onlara kömək göstərəcəyik. İndi Ermənistanın yeni hökuməti Paşinyanın simasında demirdi ki, Ermənistanı idarə edən adamlar cinayətkardır? Mən də onu deyirdim. Bəs, necə oldu, Paşinyana qədər 20 il ölkəni idarə edənlər cinayətkardırsa, bu ölkə nədir? Cinayətkar ölkədir. Onlar - iki keçmiş prezident həm Qarabağda xunta başçısı olublar, sonra isə Ermənistana rəhbərlik ediblər. Hər ikisi haqqında cinayət işi açılıb. Cinayətkardırlar, Qarabağda yaşayan ermənilərin qanını içirdilər. Haradandır bunlarda bu qədər mal, dövlət, varidat? Haradan? Ermənistan xalqının qanını soraraq əldə ediblər. Bir daha deyirəm, Dağlıq Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Azərbaycan xalqı da tolerant xalqdır. O insanların günahı yoxdur. Kimin günahı var, o cavab verir və mən demişəm ki, Azərbaycan xalqının qanı yerdə qalmayacaq və qalmır. Xocalı soyqırımını törədən cinayətkarlar son bir ay ərzindəki bu döyüşlərdə artıq məhv edildi. Ədalət zəfər çaldı. Ona görə bir daha mövqeyimi bildirmək istəyirəm, biz mütləq bu torpaqlara hərbi-siyasi yollarla qayıdacağıq. Hərbi mərhələ bu gün başa çata bilər. Biz məsələni siyasi yollarla həll edəcəyik. Azərbaycanlılar qayıdır Şuşaya, azərbaycanlılar qayıdır Xankəndiyə. Əvvəllər yaşadığımız bütün başqa yerlərə qayıdır. Erməni əhali üçün şərait yaradılır, yavaş-yavaş bir yerdə yaşamağı öyrənməliyik, həm onlar, həm də biz. Mən məsələni belə görürəm və mənim bu yanaşmam həm əxlaqa, həm beynəlxalq hüququn normalarına əsaslanır. Ermənistan isə istəyir ki, bizi oradan qovsun, ondan sonra etnik təmizləmə aparsın, bizim abidələrimizi erməniləşdirsin, xaricdən erməniləri gətirsin oraya. Bəs, Cəbrayıla yol çəkirdin, Paşinyan? Nə oldu? Hanı bu yol? Bəs, Şuşada parlament binası tikirdin? Nə oldu o? Cəhənnəmə getdi.

Mən bir daha demək istəyirəm ki, bizi heç bir qüvvə yolumuzdan döndərə bilməz. Döyüş meydanında əldə edilmiş uğurlar danışıqlar masasında da yeni reallıq yaradıbdır.

İndi isə əziz xalqıma bəzi məlumatlar vermək istəyirəm. Sentyabrın 27-dən başlayaraq bu günə qədər Ermənistanın məhv edilmiş və hərbi qənimət götürülmüş texnikasının bir hissəsinin siyahısını təqdim edirəm. Deməli, tank - 252 tank məhv edilib, 53 tank qənimət kimi götürülüb. Toplam 305 tankdan Ermənistan məhrum edilib. Amma hələ tankları var. Görün nə qədər tank olub onlarda. Piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb - cəmi 79 ədəd. Müxtəlif çaplı toplar - 251-i məhv edilib, 24-ü qənimət kimi götürülüb, cəmi 275. Minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb, toplam 106. Tank əleyhinə vasitə - 53-ü məhv edilib. 82 "Qrad" qurğusu məhv edilib. 2 "Uraqan" Yaylım Atəşli Raket Sistemi, 1 "TOS" məhv edilib. Zenit-raket kompleksləri - 4 "TOR", 40-a yaxın "OSA", 4 "KUB", 1 "KRUQ", 2 "S-125" qurğusu məhv edilib. "S-300" ən bahalı qurğulardan biridir, 6 "S-300" atıcı qurğusu məhv edilib. Bir aşkaretmə stansiyası, bir lokator. Qiyməti bəllidir. Hər kəs hesablaya bilər. Əməliyyat taktiki raket kompleksləri - Elbrus, ikisi məhv edilib, "Toçka-U" biri məhv edilib. Yük avtomobilləri - 231 yük avtomobili məhv edilib, onlardan 20-si sursatı ilə. 173 yük avtomobili hərbi qənimət kimi götürülüb. Biz düşməni toplam 404 yük avtomobilindən məhrum etmişik.

İndi bir daha sual verirəm. Hər dəfə bu sualı verirəm və verəcəyəm. Cavab gələnə qədər verəcəyəm. Haradandır bu pul, haradan? Müşahidəçilər, vasitəçilər, politoloqlar, ermənipərəstlər desinlər ki, haradan gəlir? Bizim pulumuz var, hər şey şəffaf. Nə qədər pulumuz var Azərbaycan xalqı bilir, dünya bilir, hər kəs bilir. Öz pulumuzla alırıq. Heç kimdən də asılı deyilik. Bu, borc içində olan, müflisləşən ölkə haradan alıbdır? Ermənistanın xarici dövlət borcu təxminən 8 milyard dollardır. Valyuta ehtiyatları isə 1,5 milyard dollardır. Özü də bu, sərbəst vəsait deyil, bu, bank rezervləridir. Onlardan istifadə edə bilməz. Əgər istifadə etsə, onların dırnaqarası valyutası da kəllə-mayallaq gedəcəkdir. Kim verib sənə bu qədər silahı? Niyə soruşan yoxdur? Bu bir ay ərzində, demək olar ki, mən hər gün müsahibə verirəm. Mənə sual verilir ki, Türkiyənin F-16-ları nə gəzir sizdə? Mən cavab verməkdən yorulmuşam. Gedin açın, peykiniz var, görmürsünüz nə gəzir? Gedin baxın F-16 neyləyir, havadadır, yerdədir? Hər kəs bilir ki, yerdədir. Özü də təlimlər üçün gəlib və müharibə başlayanda qalıbdır. Türkiyəli qardaşlarımız onları bizə mənəvi dəstək vermək üçün saxlayıblar. Bir də ki, əgər bizə qarşı kənardan təcavüz olarsa, o F-16-ları görəcəklər onlar. Yaxşı, orada, aeroportda cəmi 5-6 təyyarə qalıbdır. Bu barədə hər dəfə sual verirlər. Yaxşı, mən bu suallara cavab verirəm. Amma Ermənistana da, silahları onlara verənlərə də sual verin. Verin bu sualları, nə üçün silah verirsən? Pulunu verməsənmi? O silahları istehsal edən ölkələrin vətəndaşları bilirlərmi ki, bir ay ərzində onların nə qədər malı batıb? Biz onların nə qədər silahlarını məhv etmişik? Bir nəfər jurnalist bu sualı vermir mənə. Maraqlı deyilmi? Maraqlıdır. Eybi yoxdur. Biz buna artıq öyrəşmişik ki, bütün bu illər ərzində Azərbaycan haqqında iftiralar, yalanlar, uydurmalar baş alıb gedirdi. İndi Xarici mətbuat da, Azərbaycan xalqı da görür ki, mən bütün bu suallara cavab verirəm və necə lazımdır. Onların səviyyəsinə də düşmürəm. Heç vaxt. Necə lazımdır cavab verirəm də, susurlar da. Çünki cavab verə bilmirlər. Deyirəm get güzgüyə bax, sən burada bizi ittiham etməyə gəlmisən? Sual vermir. Elə bil ki prokurordur, ittiham edir bizi. Sən kimsən ki? Jurnalistlərə mənim hörmətim böyükdür. Buna görə ondan istifadə edirlər. Mən onlarla belə mülayim tərzdə danışıram. Amma bilirlər ki, istənilən formada danışa bilərəm onlarla. Bax, budur reallıq. Bizə qarşıdır bu reallıq. Amma biz reallığı dəyişdirdik. Bu yeni siyahılar bir daha göstərir ki, biz reallığı dəyişdirdik.

İndi Azərbaycan xalqının səbirsizliklə gözlədiyi siyahıları böyük məmnuniyyət və qürur hissi ilə xalqımın diqqətinə çatdıracağam.

Beləliklə, dünən azad edilmiş yaşayış məntəqələrinin siyahısını doğma xalqıma çatdırıram. Zəngilan rayonunda azad edilmiş kəndlər: Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd. Cəbrayıl rayonunun azad edilmiş kəndləri: Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər. Qubadlı rayonunun dünən azad edilmiş yaşayış məntəqələri: Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhəri!

Dünən mən artıq bu barədə Azərbaycan xalqına bu sevincli xəbəri verdim. Bir daha bu şad xəbəri bütün Azərbaycan xalqına çatdırmaq istəyirəm. Zəngilan, Cəbrayıl, Qubadlı rayonunun sakinlərinə, bu kəndlərdə yaşamış sakinlərə xoş xəbər çatdırmaq mənim üçün böyük şərəfdir. Düzdür, o kəndlərdən bir şey qalmayıb. Eybi yoxdur, bərpa edəcəyik. Azərbaycan xalqının da, dövlətinin də buna gücü çatacaq. Təki torpağımız azad olsun. Təki bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda qaldırılsın. Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!

Əziz həmvətənlər, mən hələ müharibənin ilk günlərində sizə söz vermişdim ki, biz düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!



# Qarabağ Azərbaycandır!

## Birinci vitse-prezident Mehriban Əliyeva: Bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Trend İnformasiya Agentliyinə müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

***- Hər vaxtınız xeyir, hörmətli Mehriban xanım. İlk növbədə, Azərbaycanın bir sıra şəhərlərinin və yaşayış məntəqələrinin işğaldan azad edilməsi münasibətilə Sizi öz adımızdan və oxucularımızın adından təbrik etmək istərdim.***



- Bütün xalqımızı bu əlamətdar hadisələr münasibətilə təbrik edirəm. Demək olar ki, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Bizim əsgərlər və zabitlər döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Onlar uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar. Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik. Bu, sadəcə, hərbi uğur deyil. Bu, tarixi ədalətin bərpasıdır, çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır.

Mübaliğəsiz demək olar ki, bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır. Bizim birgə qələbələrimizin tarixini!

Mən xalqın öz Prezidenti ətrafında necə sıx birləşdiyini, dövlət başçısının ümumi məqsəd naminə, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi naminə birləşməyə çağırışını gənclərimizin necə qətiyyətlə və mərdliklə qəbul etmələrini görürəm.

***- Sizin söylədiyiniz hər bir kəlmə xalqımızın istəyi ilə həmahəngdir və əməllərdə, hərəkətlərdə misli görünməmiş fəallıq doğurur. Sizin müraciətinizdən dərhal sonra həmvətənlərimizin erməni yalanlarını və böhtanlarını ifşa etməyə yönəlmiş səyləri buna parlaq sübutdur.***

- İnformasiya məkanında fəallıq göstərmək barədə çağırışıma qoşulan hər kəsə təşəkkür etmək istəyirəm. Biz daim yadda saxlamalıyıq ki, qarşıdurma təkcə bilavasitə döyüş əməliyyatları bölgəsini deyil, həm də informasiya məkanını əhatə edir. Mən bizim gənclərimizin, vətəndaşlarımızın erməni təbliğatının feyklərini necə ifşa etdiklərini, erməni təcavüzü haqqında həqiqəti bütün mümkün platformalarda beynəlxalq ictimaiyyətə necə çatdırdıqlarını görürəm. Onların haqq səsi tarixin saxtalaşdırılması hallarını aşkar etməyə və tamamilə əsassız, açıq-aydın yalan, təhrikçi materialların yayılmasının qarşısını almağa kömək edir.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkür edirəm, onların obyektivliyi və yüksək peşəkarlığı sayəsində bugünkü Azərbaycan reallıqlarını dünyaya çatdırmaq mümkün olur.

Əllərinə bayraq götürərək təcavüzkara etirazlarını bildirən və Ermənistanın işğalçı mahiyyətini beynəlxalq ictimaiyyətə göstərən xaricdə yaşayan soydaşlarımızı qeyd etməmək mümkün deyil. Azərbaycan xalqı ilə həmrəy olan, ona dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən dünyadakı bütün dostlarımıza minnətdaram.

Bu gün biz hamımız cəbhədə baş verənlər barədə fikirlərlə yaşayırıq. Azərbaycan xalqı öz Prezidentinə inanır və əmindir ki, Prezident nəyi necə, nə vaxt etmək lazım olduğunu bilir. Buna görə də biz bütün hərəkətlərimizdə və fəaliyyətimizdə həmişəkindən daha çox həmrəyik. Şübhəsiz, bizim əsgərlərimiz bu dəstəyi hiss edirlər. Bilirlər ki, onların arxasında bütün Azərbaycan xalqı dayanır.

***- Mehriban xanım, Siz bəyanatlarınızda dəfələrlə qeyd etdiyiniz kimi, hətta düşmənin mülki əhaliyə qarşı vəhşicəsinə təxribatlarına baxmayaraq, xalqımız inanılmaz ruh yüksəkliyi və mərdlik nümayiş etdirir.***

- Təəssüf ki, erməni tərəfi məqsədyönlü şəkildə nəinki beynəlxalq konvensiyaların tələblərini pozur, hətta əxlaq normalarını tapdalayır.

Gəncə, Mingəçevir, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Goranboy, Naftalan və digər yaşayış məntəqələrinin dinc əhalisinə edilən hücumlar Ermənistanın Azərbaycana qarşı məkrli siyasətini açıq ifşa edir. Dəfn mərasimi zamanı qəbiristanlığı necə atəşə tutmaq olardı? Gecə vaxtı, sakinlər yatarkən Gəncə şəhərini raket atəşinə necə məruz qoymaq olardı? Günahsız mülki şəxslər, uşaqlar, qadınlar həlak olub. Bu, insanlığa qarşı cinayətdir, bu, terrorizmdir. Bütün bunlar birmənalı şəkildə göstərir ki, Yerevanın sülhdə marağı yoxdur, o, yalnız münaqişənin eskalasiyasını, onun regional qarşıdurmaya çevrilməsini arzu edir.

Lakin Ermənistanın heç bir alçaq əməli, - nə siyasi platformaya əsaslanan iyrənc provokasiyaları, nə informasiya məkanında məkrli avantüraları, nə dinc vətəndaşlara vəhşicəsinə hücumları, - heç nə Azərbaycan xalqının iradəsini sındıra bilməz. Birlik, həmrəylik, bir-birinin dərdinə şərik olmaq və qarşılıqlı dəstək nümayişi müəyyən mənada heç kəsin heç vaxt bizim iradəmizi və Vətənimizi işğaldan azad etmək istəyimizi sındıra bilməyəcəyinə dair Azərbaycan xalqının ismarıcıdır.

Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa və Azərbaycanın mülki əhalisinə qarşı vəhşicəsinə qəddarlığı kəskin pisləməyə çağırıram. Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzü dayandırmağa çağıran qətnamələrinə etinasızlığa son qoymalıdır.

Azərbaycan dövlətinin heç vaxt başqalarının torpaqlarında gözü olmayıb. Biz dinc əhaliyə hücum etmirik. Bizim işimiz haqq işidir. Bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad edir. Bizim əsgərlər qəhrəmanlıq və igidlik göstərərək Vətən uğrunda şərəflə döyüşür, öz adlarını Azərbaycanın tarixinə yazırlar. Mən bütün yaralıların tezliklə sağalmalarını arzu edirəm. Həlak olmuş hərbi qulluqçuların ailələrinə, doğmalarına dərin hüznlə başsağlığı verirəm. Vətən naminə şəhid olmuş igid övladlarımıza Allah rəhmət eləsin. Onların qanı yerdə qalmayacaq və qalmır. Düşmənə layiq olduğu cavab verilir.

Mənim tapşırığımla Heydər Əliyev Fondu həlak olanların ailələrinə lazımi kömək göstərir. Yaralı əsgərlərin sağalması və normal həyata qayıtması üçün nə mümkündürsə edilir. Bu gün bizim bütün yaralı əsgər və zabitlər tezliklə ayağa qalxmaq və Vətən uğrunda ədalətli mübarizəni davam etdirmək üçün yenidən döyüş əməliyyatları zonasına yola düşmək istəyirlər. Budur Azərbaycan xalqının ruh yüksəkliyi və vətənpərvərliyi.

***- Mehriban xanım, Siz bu günlərdə xalqımızın qeyri-adi birliyini qeyd etdiniz. Koronavirus pandemiyasına qarşı mübarizədə bir növ şüara çevrilmiş "Biz birlikdə güclüyük!" cümləsini hamımız xatırlayırıq. Demək olarmı ki, bu gün həmin cümlə xüsusi məna kəsb edir?***

- Bu, şübhəsiz belədir. Biz yalnız birliyimizi qorumaqla və Prezidentin ətrafında sıx birləşməklə bu ilin yadda qalacağı bütün çağırışları və çətinlikləri dəf edə bilərik.

Siz koronavirus pandemiyasını xatırlatdınız və mən bu məsələyə bir qədər ətraflı toxunmaq istərdim. Biz bu günədək vaxtında və hərtərəfli düşünülmüş tədbirlər sayəsində dünyanın bir çox ölkələrinin üzləşdiyi faciəli ssenaridən xilas ola bilmişik. Ekspertlərin fikrincə, bizim ölkəmiz epidemiyanın ilk və olduqca təhlükəli mərhələsini ən az sayda itki ilə başa vurmuş dövlətlər sırasındadır. Biz epidemiya ilə mübarizənin bütün aspektlərini koordinasiya edən peşəkar komanda yaratmağa, zəruri texniki və insan resurslarını birləşdirməyə müvəffəq olduq. Tətbiq edilmiş karantin tədbirləri koronavirusun yayılma sürətini azaltmağa kömək etdi. Biz birlikdə Vətənimizi bu xəstəliyin təhlükəli surətdə yayılmasından qoruya bildik.

Təəssüf ki, çoxsaylı ölkələrə və xalqlara bu qədər bəla və iztirab gətirmiş virusa hələ də qalib gəlmək mümkün olmayıb. O, hələ də ciddi təhlükə mənbəyidir, bütün dünyada pisləşməkdə olan statistika buna sübutdur. Pandemiyaya qarşı mübarizə hələ davam edir. Avropa dövlətlərinin çoxunda çoxsaylı məhdudiyyətlər yenidən qüvvəyə minir.

Təəssüf ki, bizim ölkəmiz də istisna deyil. Məlumdur ki, son günlərdə yoluxanların sayının artması müşahidə olunur, təhsil müəssisələrində, ictimai nəqliyyatda yenidən bəzi məhdudiyyətlər tətbiq edilib.

Mən sizin hər birinizi koronavirusun təhlükəli olduğunu unutmamağa, aylarla riayət etdiyimiz elementar qaydaları gözləməyə, məsafəyə riayət etməyə, həqiqətən real zərurət olmadığı halda insanların kütləvi şəkildə toplaşdığı yerlərə getməməyə çağırıram. Bizə yaxşı məlum olan bütün bu qaydalar yoluxma riskini azaltmağa və deməli, bizi və yaxınlarımızı xəstəlikdən qorumağa kömək edər. Biz yaşlı nəslə həmişə xüsusi qayğı və hörmətlə yanaşırıq. Pandemiyanın birinci mərhələsi dövründə biz onları qayğı ilə qoruduq. Əminəm ki, indiki şəraitdə biz daha diqqətli olacağıq.

Bu gün, ordumuz öz tarixi missiyasını davam etdirdiyi bir vaxtda dövlətimizin, o cümlədən səhiyyə sisteminin üzərinə düşən yükü maksimum azaltmaq lazımdır. İndi bütün resursların bizim xilaskarlıq əməliyyatı üzərində cəmləşməsi müstəsna əhəmiyyət kəsb edir. Biz arxa cəbhədə öz sağlamlığımızın qeydinə qalmaqla, sayıqlıq və intizam nümayiş etdirməklə, eyni zamanda, ön cəbhədəki əsgərlərimizə kömək edir və onları qoruyuruq.

Əminəm ki, biz bu vəzifənin öhdəsindən gələcəyik və bir daha sübut edəcəyik ki, gücümüz birlikdədir!



# Qarabağ Azərbaycandır!

Gecə xoşbəxt ailə kimi yatıb, səhər isə kimsəsiz uşaq kimi oyanmağın necə bir hiss olduğunu, yəqin ki, heç birimiz anlamarıq. Amma onlar bu dəhşəti yaşadılar. Özü də erməni terrorçularının sayəsində. Düşmənin günahsız körpələrə və dinc sakinlərə raket atəşi açması 4 uşağın hər iki valideynini itirməsi, mülki insanların dünyadan köçməsi və onlarla insanın xəsarət alması ilə nəticələndi. Gəncədə baş verən insanlığa sığmayan bu qanlı terror hadisələri yalnız həmin uşaqların dərdi deyil, bütün Azərbaycan xalqının ağrı-acısıdır.

## Gəncə terrorunda “qanadı sınmış” mələklər

Ailələrin məhv olduğu, isti yataqların bir anda soyuq məzarlara çevrildiyi həmin o terror hadisələri haqda hələ çox danışılacaq. Erməni terrorçuları mülki əhalini raket atəşinə tutmaqla körpələrin gələcəyini, valideynlərin isə arzularını əlindən aldı. Bu terror aktı nəticəsində körpələrin isti beşikləri qara torpaqla əvəz olundu.

Həmin körpələrə valideynlərinin mələk olması xəbərinin verilməsi isə heç bir insanlığa sığmır.

“Olimpiya dünyası” qəzeti olaraq, erməni silahlı qüvvələrinin mülki insanlara qarşı törətdiyi vandalizmi gündəmdə saxlamaq üçün bu dəfə də Gəncədəki terror aktına xüsusi yer ayırmışıq. Budəfəki sayımızda Gəncədən olan millət vəkili Müşfiq Cəfərov, Gəncə şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Həmid Nəsirov və dağıntılar zamanı hər iki valideynlərini itirən körpə balaların yaxınları ilə əlaqə saxladıq. Uşaqların yaxınlarının ürəkdağlayan sözlərini dinlədikcə biz də sözün əsl mənasında bir daha həmin hadisələrin şahidi olduq. Hadisələrin canlı şahidləri isə bu ağrını nəinki unutmaq, hətta bu ağrı-acını ömürlük olaraq ürəklərində daşıyacaqlarını bildirdilər.

### “Düşmən istəyinə nail olmadı”

***Müşfiq Cəfərov (Millət vəkili):***

- Ermənistan cəbhədəki uğursuzluğunu pərdələmək üçün Azərbaycanın böyük şəhərlərində terror hadisələri törətdi. Düşmənin öz xalqı qarşısında sözü olmadığı üçün, təsəlli məqsədilə silahını Azərbaycanın mülki əhalisinə çevirir. Mingəçevir və Gəncəyə raket atılması mənfur düşmənimizin əsl simasını bir daha dünyaya göstərdi. Ermənistanın cəzasız qalması isə onun daha çox cinayət törətməsinə səbəb olur. Dünya ölkələrinin beynəlxalq ictimaiyyət qarşısında müəyyən öhtəlikləri var ki, Ermənistan bunları heçə sayır. Münaqişə zonasından kənar bölgələri raket atəşinə tutan Ermənistanın məqsədi Azərbaycana təzyiq göstərmək və əhalini ruhdan salmaqdır.

Gəncəyə ilk raket atəşi oktyabrın 4-də açılıb. Nəticədə 3 mülki şəxs həyatını itirdi, bir sıra yaşayış məskənləri dağıldı. Oktyabrın 10-da Moskvada humanitar atəşkəs imzalansa da, düşmən oktyabrın 10-dan 11-ə keçən gecə növbəti dəfə Gəncədə mülki insanların yaşadığı ərazilərə raket atəşinə tutdu və 3 yaşayış binası tamamilə məhv oldu. Həmin binada bir çox insanın həyatı, arzuları və ümidləri puç oldu. Oktyabrın 17-də Gəncə şəhəri yenə düşmənin hədəfinə çevrildi. Atılan raket mərmisi nəticəsində 15 nəfər həyatını itirdi, 50-dən çox insan isə yaralandı.

Ümumiyyətlə, Gəncəni hədəf alan raket zərbələri hərbi obyektlərə deyil, yaşayış məntəqələrinə tuşlanmışdı. Hazırda bərpa işləri aparılır, vətəndaşlara dəyən zərər hesablanıb, təmin olunur. Ən böyük müsbət hal isə insanların əhval ruhiyyəsinin olduqca yüksək olması ilə bağlıdır. Hər kəs qələbəyə köklənib. Evlərini itirənlərə həm dövlət, həm də vətəndaş qayğısı var. Bu qayğı təkcə Gəncəylə məhdudlaşmır, bütün Azərbaycanı əhatə edir. Ölkəmizdə olan şirkətlər də həmçinin vətəndaşlara maddi-mənəvi dəstək olur. Gəncə terroru nəticəsində valideynlərini itirən uşaqlar müəyyən şirkətlər və iş adamları tərəfindən himayə olunur. Bütün bunlara əsaslanıb deyə bilərəm ki, düşmən istəyinə nail olmadı, xalqımızın əhval ruhiyyəsinə təsir edə bilmədi.

### “Düşmən yenə də günahsız insanları hədəf aldı”

***Həmid Nəsirov (Gəncə şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi):***

- Rəşadətli Ordumuzun uğurlu hərbi əməliyyatları nəticəsində torpaqlarımızın bir hissəsi işğaldan azad edilib.









Erməni silahlı qüvvələri isə cəbhədə Ordumuzla bacarmadığı üçün qisasını dinc əhalidən almağa çalışır. Onlar öz xislətinə uyğun olaraq mülki vətəndaşları hədəfə almaqla insanların iradəsini zəifləməyə çalışırlar. Lakin buna baxmayaraq, Gəncə sakinləri qorxmur, torpaqlarımızın işğaldan azad olunması uğrunda öz qətiyyətini nümayiş etdirirlər.

Qeyd edim ki, 4-17 oktyabr tarixində Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinə 13 raket zərbəsi endirilib. Onlardan 6-sı partlayıb, 7-si isə zərərsizləşdirilib. Bu terror hadisələri zamanı ümumilikdə 26 şəxs həlak olub, 133 nəfər isə yaralanıb. Vəfat edənlərdən 7-si uşaqdır, 4 uşaq isə hər iki valideynini itirib. Oktyabrın 11-də olan partlayış zamanı çoxmənzilli bina, oktyabrın 17-də olan terror hadisəsi nəticəsində isə 20-dən artıq ev tamamilə dağılıb, digər evlərə isə ciddi ziyan dəyib. İlkin araşdırmaya əsasən, 135-ə yaxın ailə Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən kirayə evlər və yaşayış sahələri ilə təmin edilib. Eyni zamanda bu terror hadisəsində zərər çəkmiş insanlar Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən gündəlik tələbat vasitələri və geyimlə təmin olunublar. Onu da əlavə edim ki, terror hadisəsi zamanı hər iki valideynini itirmiş Sevil və Hüseyni Gənclər və İdman Nazirliyi öz himayəsinə götürüb. Qeyd edim ki, oktyabrın 11-də olan terror hadisəsində Gəncə şəhər stadionunun inzibati binasına da zərər dəymişdi. Artıq binanın pəncərələri və şüşələri təmir olunub. Partlayış zamanı həmçinin, 3 veteran futbolçu da müxtəlif xəsarətlər alıb. Onların səhhəti hazırda yaxşıdır.

Bir sözlə, Gəncə terroru öz qəddarlığı və amansızlığı ilə bir daha ermənilərin insanlığa qarşı ən böyük təhlükə olduğunu bütün dünyaya nümayiş etdirdi. Düşmən məhz Xocalı soyqırımında olduğu kimi, yenə də günahsız insanları hədəf aldı. Biz idman ictimaiyyətinin nümayəndəsi kimi dinc əhaliyə qarşı baş verən bu terror hadisələrini şiddətlə qınayırıq. Ümid edirik ki, onlar bu insanlığa sığmayan vəhşi əməllərinə görə mütləq cəzalandırılacaqlar.

### “Heç kəsə övlad itkisi arzu etmirəm”

***Adil Əliyev (Hər iki valideynini itirən Sevil və Hüseyn Əliyevlərin babası):***

- Mənə bu barədə danışmaq həqiqətən də çox çətindir. Heç kəsə övlad itkisi arzu etmirəm. Həmin gecə saatlarında böyük oğlum mənə zəng etdi və həlak olan oğlum, yəni Anargilə gəlməyimi istədi. Hadisədən xəbərsiz idim. Əvvəlcə nəvələrimdən birinin xəstələndiyini düşündüm və ondan zəng etməyinin əsl səbəbini öyrənməyə çalışdım. Nəhayət, oğlum mənə nə baş verdiyini dedi. Özümüzü ələ alıb, həyat yoldaşımla birlikdə hadisə yerinə gəldik. Həmin əraziyə çatanda dəhşətə gəldim. Orada olan binalardan əsər-əlamət belə qalmamışdı. Raket atılan zaman evdə oğlum Anar, onun həyat yoldaşı Nurçin və 16 yaşlı qızları Sevil var idi. 8 yaşlı nəvəm Hüseyn isə həmin gün ana babaları ilə birlikdə idi. Sevilin valideynləri ilə eyni otaqda olmaması, onun yüngül xəsarətlər alaraq xilas olmasına səbəb oldu. Oğlumu və gəlinimi tapanda isə hər kəsin ürəyi parçalandı. Belə ki, oğlum həyat yoldaşına sarılaraq, dünyasını dəyişmişdi. O, həyat yoldaşını dağıntılar altında axtarıb tapmışdı. Gəlinimin boyun nahiyəsi, qolu və ayağı sınmışdı. Oğlum isə heç bir xəsarət almamışdı. Onun yalnız ürək tərəfində qara bir ləkə var idi. Ola bilər ki, hava çatışmazlığından ürəyi











partlamışdı. Bu çox ağır dərddir. Günahsız oğlum və onun həyat yoldaşı həlak oldu, nəvələrim isə valideynsiz qaldılar.

### “Qızımın ürəyi hələ də döyünürdü”

***Sevil Babazadə (Hər iki valideynini itirən 2 yaşlı körpə Nilay Əliyevanın nənəsi):***

- Həmin gün mən öz evimdə idim. Düşünürəm ki, o dəhşətli səsi bütün Gəncə sakinləri eşitdi. Təbii ki, hər kəs həmin an yaxınlarını axtarır, zəng edib vəziyyətləri ilə maraqlanırdı. Qızım Günay həyat yoldaşı Adil və qızı Nilay qaynanası ilə birgə yaşayırdı. Hadisədən sonra onlara zəng etdim, lakin zəngimə cavab verən olmadı. Telefonlarına zəng çatmaması məni bir az sakitləşdirdi. Düşündüm ki, yəqin qorxub həyətə çıxıblar. Təxminən 20 dəqiqəyə hadisə yerinə çatdım. Binanı o vəziyyətdə görəndə sanki dünya başıma fırlandı. Artıq hamısının həlak olduğunu anlayırdım. Orada olan insanlar mənə bir qız uşağını dağıntılar altından çıxardıqlarını dedilər. Düzünü deyim ki, əvvəl onlara inanmadım. Oradan kiminsə sağ çıxa biləcəyini düşünmürdüm. Hadisə yerinə çatanda xilasedicilər artıq Nilayı və atasını tapmışdılar. Qızımı isə gözümün önündə dağıntıların altından çıxardılar. Həmin dəqiqələr həyatımın ən dəhşətli anları idi. Qızımın ürəyi hələ də döyünürdü. Onu dərhal təcili yardım vasitəsi ilə xəstəxanaya apardılar. İki gün ümidlə ayılacağını gözləsək də, ürəyi dayandı. Bu ağrını sözlə ifadə etmək mümkün deyil. Övlad acısı ən ağır dərddir. Həmin hadisədə körpə nəvəm Nilayın sağ qalması həqiqətən də möcüzə idi. Çünki o gecə Nilay da valideynləri ilə eyni otaqda idi. Terror hadisəsində nitqində problem yaranan Nilay psixoloji dəstək nəticəsində artıq danışa bilir. Lakin çox dəcəllik edir, valideynlərini istəyir. Ona anasının və atasının başqa yerə getdiklərini və qayıdacaqlarını demişik. O, çox böyük stress yaşayır və psixoloji müalicə alır. Həqiqətən də, mənə ana kimi necə çətindirsə, Nilay üçün də ikiqat çətindir. Çünki iki yaşlı uşaq bir gecədə anasını, atasını və nənəsini itirdi. Bu dəhşətdir. Sanki hələ də yuxu görürəm. İnana bilmirəm ki, gecə danışdığım qızımı 3 saatdan sonra gözümün qarşısında dağıntılar altından çıxardılar. Mən bunu Gəncə soyqırımı adlandırardım. Axı dinc sakinlərin, körpələrin günahları nə idi ki, onların üzərinə gecə raket atılsın. Gecə ailəsi ilə birgə yatıb, səhəri valideynlərsiz oyanmaq çox ağırdır. Hazırda Nilay mənimlə yaşayır. Çalışıram ki, bacardığım qədər ona rahat həyat qurum.

### “Yuxuda ermənilərin onun atasını öldürdüyünü görmüşdü”

***Xəyal Şahnəzərov (Hər iki valideynini itirən 3 yaşlı körpə Xədicə Şahnəzərovanın əmisi):***

- Raket zərbəsindən əvvəl ailəmi və anamı bir müddət Bakıya, bacımgilə göndərmək qərarına gəldim. Qardaşım Röyalı da ailəsini Bakıya yollaması üçün təkid edirdim. O isə təklifimi qəbul etmədi. “Raketin bizim evə düşəcəyini haradan bilirsiniz?”,- dedi. Zərbə endirilən vaxt evimdə idim. Möhkəm səs eşitdim və həyətə çıxdım. Elə həmin vaxt dostum zəng edib, raket mərmisinin Röyalgilin evlərinin yaxınlığına düşdüyünü dedi. Dərhal hadisə yerinə getdim. Evlərinin darmadağın olduğunu görəndə dəhşətə gəldim. Ev demək olar ki, yox olmuşdu. Xilasedicilər onları dağıntıların altında axtarırdılar. Lakin qardaşımgilin ev əşyalarını kənarda görəndə, özlərini də evdə deyil, kənarda axtarmalı olduğumuzu anladım. Dəhşət və təşviş içində onları axtarmağa başladım. İlk olaraq həyat yoldaşını, daha sonra isə qardaşımı tapdım. Kiçik qızları Mədinəni və böyük qızları Xədicəni isə qonşunun həyətindən tapdıq. Lakin təəssüf ki, yaşyarımlıq Mədinə artıq dünyasını dəyişmişdi. Xədicənin sağ qalması isə həqiqətən də, möcüzə idi. Bilirsiniz, qeyri-adi olan budur ki, Xədicə bu hadisənin olacağını sanki hiss edirdi. Belə ki, bir neçə gün əvvəl yuxuda ermənilərin onun atasını öldürdüyünü görmüşdü. Nənəsi isə bunun sadəcə, bir yuxu olduğunu və ona qorxmamasını demişdi. Bir gündə bütün ailə üzvlərini itirmək 3 yaşlı uşaq üçün çox ağırdır. Baş verənləri anlamayan Xədicənin gözləri əzizlərini axtarır, dili isə yalnız ana deyir. Hazırda psixoloji cəhətdən dəstək olmaq və müalicəsini davam etdirmək üçün onu Bakıdakı xəstəxanalardan birinə gətirmişik. Çünki həmin hadisədən sonra kiçik bir səs belə, Xədicəni qorxudur. İnanıram ki, müalicə prosesindən sonra o, tezliklə öz ağrılarını unudacaq. Lakin valideynlərinin və bacısının ölümü ona bir ömür boyu ağrı verəcək. Biz bu ağrını nə qədər çalışsaq da, ona unutdura bilməyəcəyik.

***Azər Əlizadə,***
***Türkay Niftəliyeva***

# Qarabağ Azərbaycandır!



***Bu gün biz torpaqlarımızın azad olunması xəbərlərini eşidərək, qürurlanır, bu vətənin övladı olmağımızla fəxr edirik. Cənab Ali Baş Komandan İlham Əliyevin Qarabağın işğaldan azad olunması barədə verdiyi xoş müjdələr biri-birini əvəz edir. Bəli, biz əminliklə deyə bilərik ki, bu gün müzəffər Ordumuzun döyüş meydanında rəşadəti qarşısında ermənilər tab gətirə bilmir. Doğma torpaqlarında müharibə aparan ölkəmiz hazırda ərazi bütövlüyünü qarış-qarış bərpa edir. Oktyabrın 20-də bütün Azərbaycan xoş bir xəbərə sevindi. Ali Baş Komandan İlham Əliyev xalqa müraciət edərək Zəngilanın işğaldan azad olunduğunu sevinclə bildirdi. Hər birimiz sevindik. Lakin ən çox sevinən 27 il dədə-baba yurdundan didərgin düşən zəngilanlılar oldu. Onların sevincini heç bir sözlə ifadə etmək olmur.***

***Vətən müharibəsi başlanan gündən "Olimpiya dünyası" qəzeti öz səhifələrini bu mövzuya həsr edir. Bu sayımızda Zəngilan barəsində topladığımız məlumatları çoxsaylı oxucularımıza təqdim edirik.***

## Zəngilan 27 ildən sonra işğaldan azad olundu

XIX əsrin əvvəllərində Qafqazın Rusiya tərəfindən işğalından sonra yeni inzibati ərazi bölgüsü aparılıb. Bölgü nəticəsində Zəngəzur qəzası Gəncə quberniyasına tabe edilib, Sisyan, Qafan, Mehri, Zəngilan, Qubadlı və Laçın buraya daxil olunub. Zəngilanın ərazisi şərqdən Həkəri çayından Mehri dağ silsiləsinə qədər olan ərazini əhatə edir.

1920-ci ilin 28 aprel işğalından sonra bolşeviklərin köməyi ilə qədim türk torpaqları hesabına ilk dövlətlərini quran ermənilər Zəngəzur qəzasını işğal ediblər. Bu zaman bolşevik Rusiyasının təkidi ilə Zəngəzur Azərbaycanın əlindən alınaraq, Ermənistana birləşdirilib. Nəticədə, qəzanın yuxarı hissəsi Ermənistanın, Laçın, Qubadlı və Zəngilan bölgələri isə Azərbaycanın tərkibində qalıb.

Zəngilan rayonu 1930-cu ildə yaradılmışdır. Rayonun sahəsi 707 kvadrat kilometr, əhalisi 35 mindən çox olub. Ərazisinə bir şəhər, bir qəsəbə, 83 kənd daxildir.

İşğal ərəfəsində rayon ərazisində onlarla milli və dini-tarixi abidə olunmuşdur.

### "Zəngli ilanlar məskəni" yoxsa "zəngin alan"?

XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilanın əsası hicri tarixinin 15-ci ilində, yəni 636-cı (637) ildə qoyulub. Deməli, Zəngilanın təqribən 1400 ilə yaxın yaşı var.

Bəs qədim keçmişi olan Zəngilan toponimi özündə hansı mənanı kəsb edir? Bu barədə müxtəlif fikirlər mövcuddur. Əslən zəngilanlı olan coğrafiya elmləri namizədi Məhəmməd Cabbarovun qeydlərində göstərilir ki, vaxtilə İranda Bəxtiyarlılar deyilən tayfalar yaşamış, onlardan biri "Zəngi" adlanmışdır. XVI-XVII əsrlərdə müxtəlif ölkələrdən əhali qruplarının köç salıb, Azərbaycanda məskunlaşdıqları dövrlərdə zəngilər miqrasiya edərək, rayonumuzun ərazisində qərarlaşıblar. Tayfanın adına əlavə edilən "lan" sözü, çox güman ki, məskunlaşma ilə əlaqədardır.

"Zəngəzurun zəngilanlı ziyalıları" kitabının müəllifi Əli Sobulunun yerli əhalinin, ağsaqqalların fikirlərindən bəhrələnərək qələmə aldığı ehtimallarda rayonun adı orta əsrlərin sonlarında viran edilmiş, Gilan şəhərindən köçənlərlə əlaqələndirilir. Müəllif yazır ki, deyilənə görə, oradan bir tayfa indiki Zəngilan ərazisinə köç ediblər. Onlar bir-birinə "sən gilanlı?" - deyə müraciət etmişlər. Bu söz sonradan dəyişikliyə məruz qalmış, "S" hərfi "Z" hərfi ilə əvəzlənmiş, nəticədə Zəngilan sözünün formalaşmasına səbəb olmuşdur. Başqa bir ehtimala görə isə "zən" sözü şərq dillərindən birində "yeni, təzə" deməkdir. Buradan da yeni "Gilan" ifadəsi yaranır. Yazıçı-jurnalist Akif Kərimlinin Zəngilan barəsində 10-dan artıq kitabında da bu toponim barəsində məlumat yer alıb. Ümumilikdə, təxminən 20-dən artıq kitabda digər iki ehtimal isə ilan sözü ilə bağlıdır. Onlardan birində Zəngilan sözünün "ilanla zəngin yer" mənası verdiyi, digərində isə guya ərazidə olan ilanlar zəng cingiltisinə oxşar səs çıxardıqları üçün bu yerin zəngli ilanlar məskəni adlandırıldığı qeyd edilir. Digər bir araşdırma da daha inandırıcı ehtimal da vardır. Məlum olduğu kimi, rayona Zəngilan adı 1930-cu ildə verilmişdir. İlk adı Pirçivan olan rayon mərkəzi isə yalnız 1957-ci ildən Zəngilan adlandırılmışdır. Sözün mənşəyini rayon inzibati ərazi vahidi kimi formalaşanadək mərkəz funksiyasını yerinə yetirmiş "kənd Zəngilan"ın tarixində və coğrafiyasında axtarmaq lazımdır. Daimi axarı olan Oxçu çayının kənarında qərarlaşan kənd münbit torpaqlarda yerləşir. Yaşlı sakinlərin dediklərinə görə, Oxçuçayın suyunu mənfur qonşularımız mis molibden mədənlərinin, Qacaran, Qafan şəhərlərinin çirkab tullantılarının lil qatı ilə çirkləndirib. Nəticədə zəhərlənən, indiki dövrdən fərqli olaraq, keçmişdə çay balıqla zəngin olmuş, bağlar, əkinlər məhsuldarlılığı ilə diqqət cəlb etmişdir. Odur ki, qədim İpək Yolunun üzərində yerləşən bu kəndi zəngin "alan" kimi tanımış və adlandırmışlar. "Alan" hal-hazırda da işlədilən türk sözüdür. Mənası "ərazi", "sahə" deməkdir. Vurğulamaq lazımdır ki, rayonumuzun adını "Zəngalan" kimi ifadə edənlər də az deyil. "Zəngin ərazi" ifadəsi həqiqətən reallığa uyğundur.



### Zəngilan necə işğal olunmuşdu?

XX əsrin sonu Azərbaycan xalqının tarixinə faciələrlə dolu bir dövr kimi yazıldı.

Zəngilan müharibə alovunun qasırğasını 1990-cı ildən daha tez-tez hiss etməyə başladı. Ermənilər dəmir yolunu bağlayıb, qatarları saxlayır, adamları girov götürürdülər. 1992-ci ilin əvvəlindən isə rayonun sərhəd kəndləri döyüş zonasına çevrildi. Yerli əhali gizləyib saxladıqları ov tüfəngləri ilə torpaqlarımızı qoruyurdular. Ermənilər isə xarici havadarların köməyilə mükəmməl silahlanmışdılar. Zəngilanın işğalı artıq 1992-ci ildə faktiki olaraq reallaşmışdı. 1992-ci ilin yanvar ayının sonunda ermənilərin Zəngilana mütəşəkkil hücumları başlayır. Fevralın 1-də Günqışlaq, Qazançı, Dərəli və Vejnəli kəndinə basqın edirlər. Artıq döyüşlər intensiv xarakter almışdı. Aprelin 9-da erməni silahlı birləşmələri Qazançı, Seyidlər, Dərəli, Ağkənd, Pirveyis, Günqışlaq kəndlərinə soxulur. Evlərə od vururlar. Beləliklə, bu kəndlər ermənilərin nəzarəti altına keçir. İki həftə sonra Qazançı və Dərəli kəndləri azad edilsə də, Seyidlər kəndi mühasirədə qalır. Bundan sonra ermənilərin növbəti hücumu iyunun 29-na təsadüf edir. Çox ağır və qanlı döyüşlər iki saat çəkir. Artıq iyulun 6-da düşmən rayon mərkəzini atəşə tutur. Bütün yayı Zəngilanın kəndləri və rayon mərkəzi düşmən atəşinə məruz qalır. Bir müddət fasilədən sonra oktyabrın 20-də ermənilərin döyüş təyyarələri rayon mərkəzini bombalayır. Dekabrın 10-da Seyidlər kəndi yenidən ermənilər tərəfindən işğal olunur. Beləliklə də, 1992-ci ilin sonunda Zəngilanın 13 yaşayış məntəqəsi, bir çox strateji yüksəklikləri düşmənin əlinə keçir. Bununla da rayonun işğalının əsası qoyulur. Vəziyyət getdikcə gərginləşirdi. 1993-cü ildə isə döyüşlər ara vermirdi. Yaz aylarında ermənilərin hücumları daha da intensivləşir. Martın 2-də Aşağı Göyəli və Canbir kəndləri işğal olunur. İki gün sonra Şayıflı və ətraf kəndlərə düşmən hücumları genişlənir. Rayon mərkəzi atəş altında qalır. Belə bir şəraitdə çətinliklərə baxmayaraq mərd əhali təslim olmur, düşmən hücumları dəf edilirdi. İyulun 19-da Qızıldaş qəsəbəsi döyüş meydanına çevrilir. Avqustun 25-də erməni hərbi birləşmələri genişmiqyaslı hücuma keçərək, daha 5 kilometr irəliləyir. Oktyabrın sonuna yaxın rayon tam mühasirə vəziyyətinə düşür. Oktyabrın 25-26-da Sığırt və Bartaz yüksəklikləri işğal olunur. Bununla da Zəngilanın mühasirəsi başa çatır. Doğma yurdunu tərk edən təxminən 34 min əhali İran sərhədinə-Araz çayının kənarına toplaşır. Gursulu Araz çayını isə keçmək mümkün olmur. Xalqımızın xilaskarı, ümummilli lider Heydər Əliyev bu dəfə də xalqın köməyinə gəlir. O, İran hökuməti ilə danışıqlar aparır və Araz çayı üzərindəki bənddə suyu bağlayırlar. Yalnız bundan sonra əhali çayı keçib, xilas olur.

Hazırda Zəngilan rayonunun məcburi köçkünləri Bakıda və respublikamızın 43 rayonunda müvəqqəti məskunlaşıb.



### İşğaldan əvvəl rayonda idmana böyük maraq olub

"Olimpiya dünyası" qəzeti olaraq Zəngilan idman tarixi barəsində məlumat verməyi özümüzə borc bildik. 27 il əvvələ qədər Zəngilanın idmanın həyatında baş verən bir sıra hadisləri və idman sahəsini əhatə edən nəticələri bir araya topladıq.

Belə ki, Zəngilanda ilk rəsmi idman tədbiri rayon Komsomol Gənclər Təşkilatı tərəfindən 1941-ci ildə idmanın gimnastikası növü üzrə keçirilib. İdman yarışında Məmmədbəyli kəndinin "Bakraboçi" kolxozunun komandası I yerə layiq görülmüşdür. 1951-ci ildə Məhsul Kənd Könüllü Bədən Tərbiyəsi və İdman Cəmiyyətinin yaradılması respublikada, o cümlədən Zəngilanda idmanın inkişafında yeni mərhələ olub. Xüsusilə 1960-70-80-ci illərdə rayonda futbolun inkişafı özünün pik nöqtəsinə çatmışdır. Respublika birinciliyinə vəsiqə uğrunda yarışan rayon yığması respublikanın futbol mütəxəssislərinin diqqət mərkəzində olmuşdur. O dövrdə komandada Şahmar Həsənov, Salam Cavadov, Nizami Məhərrəmov, Fazil Təhməzov və digər futbolçular heyətin əsasını təşkil etmişlər.

İşğala qədər rayonda idmanın futbol, voleybol, atletika, şahmat və yunan-Roma güləşi növü geniş yayılmış və inkişaf etmişdir. Zəngilanlı idmançılar təmsil olunduqları idman yarışlarında daim yüksək bacarıq və əzmkarlıqları ilə seçilmişlər. Məlumat üçün bildirək ki, rayonun işğalı ilə "Məhsul" Kənd könüllü İdman Cəmiyyəti rayon şurasının 1500 nəfərlik stadionu, 10 sadə idman qurğusu, 13 voleybol və 5 basketbol meydançası düşmənlər tərəfindən zəbt edilib. Xeyli idman inventarı və cəmiyyətin nəzdnində olan "İdman servis" firmasının "Süsən" mağasının ərzaq məhsulu və idman inventarı düşmənin əlinə keçmişdir.

### Zəngilan idmanı bu gün

İşğaldan sonra rayon əhalisi məcburi olaraq respublikanın 43 rayonuna səpələniblər. Rayonun hər sahədə geriləmələri idmandan da yan keçməyib. Bu hal təbii olaraq bütün sahələrə olduğu kimi, idman sahəsinə də ciddi zərbə vurub. Lakin qısa zaman kəsiyindən sonra yeniyetmə və gənclərimizin idmanla məşğul olması üçün müəyyən işlər görülmüş, bu istiqamətdə ciddi nailiyyətlər əldə olunmuşdur. Bu gün rayon sakinləri məskunlaşdığı şəhər və rayonlarda idmanın futbol, voleybol, atletika, taekvondo, kikboksinq, şahmat, karate-do, cüdo, yunan-Roma və sərbəst güləş növləri daha geniş məşğul olurlar. Hər il adı çəkilən idman növləri üzrə rayon birincilikləri, turnir və açıq rayon birincilikləri təşkil olunur, respublika əhəmiyyətli idman tədbirlərində zəngilanlı idmançıların iştirakı təmin olunur. Eyni zamanda rayon Təhsil Şöbəsinin nəzdində futbol, voleybol və atletika idman növlərinin təlimini həyata keçirən Uşaq-Gənclər İdman Məktəbi və Şahmat Uşaq-Gənclər İdman məktəbləri fəaliyyət göstərir.

Zəngilanlı idmançılar arasında kifayət qədər uğur qazanan idmançıların da sayı az deyil. Azərbaycan şahmatında böyük nüfuza malik olan Məmmədyarovlar məhz zəngilanlı ailənin nümayəndələridir. Cüdo üzrə üçqat Avropa çempionu, Olimpiya Oyunlarının iştirakçısı Elçin İsmayılov, güləş üzrə Avropa və dünya çempionu Orxan Əhmədov, II Avropa Oyunlarının qalibi Asiman Qurbanlını misal göstərmək olar. Şəhriyar Məmmədyarov, Türkan və Zeynəb Məmmədyarova bacıları Azərbaycan yığma komandasının üzvləri, beynəlxalq qrossmeysterləridir. Bundan başqa Siyavuş Bayramov (karate), Nurlan Qədimov (kikboksinq), Bəhruz Rüstəmov (şotakan karate-do) və digər idmançılar zəngilanlı ailəsində böyüyüb, boya-başa çatıblar.

Artıq Zəngilan işğaldan azad olunmuş rayonlarımız sırasındadır. 27 ildən sonra oktyabrın 20-də rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunu düşməndən azad etdi. Bununla da Müstəqil Azərbaycanın zəfər salnaməsində yeni bir səhifə açıldı. Artıq uzun illər doğma yurdundan didərgin düşən zəngilanlılar torpaqlarına geri qayıda biləcəklər. Tezliklə həmin ərazilər abadlaşacaq, əvvəlki kimi həyat axarına düşəcək. Həmin kəndlərdə idman da yeni mərhələyə qədəm qoyacaq. İnanırıq ki, Zəngilanın müxtəlif idman növləri üzrə yığma komandaları formalaşacaq. Rəqib komandalar səfər görüşlərini, təlim-məşq toplanışlarını Zəngilanda keçirəcəklər. Bunun üçün artıq heç bir maneə yoxdur. Çünki Zəngilan Qarabağdır, Qarabağ Azərbaycandır!

***Anar Əhmədov***



# Qarabağ Azərbaycandır!



***Hərbçilərimizin əksəriyyəti onu özünə mənəvi ana hesab edirlər. Ömrünün 20 ilini həsr etdiyi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları bu gün onun müəllifi olduğu məktəb marşını böyük həvəslə oxuyurlar. Söhbət şairə, Əməkdar mədəniyyət işçisi, qadın hərbçi, Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin Kitabxana rəisi Zəminə Xınalıdan gedir. Hərbi vətənpərvərlik mövzusunda 30-a yaxın kitabın, o cümlədən bir sıra məktəb marşlarının müəllifi olan Zəminə xanım Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident mükafatçısıdır. Zəminə Xınalı "Qızıl Qələm", "Məmməd Araz" və sairə media mükafatları laureatıdır.***

***Bu yaxınlarda Zəminə xanımla görüşüb, onunla həmsöhbət olduq. Həmin müsahibəni oxucularımıza təqdim edirik.***

## "Vətən uğrunda canını fəda etmək şərəfdir, o, hər kəsə nəsib olmur"

***- Zəminə xanım, bu günlər ölkəmiz üçün tarixi hadisələr və müzəffər Ordumuzun zəfərləri ilə yadda qalır. İstərdik ki, əvvəlcə söhbətimizə elə bu mövzu ilə başlayaq.***

- Vətən müharibəsinin başladığı ilk gündən qələbə qazanacağımıza böyük inam hissim var. Bu gün xalqımız da bu inamı hiss edərək Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ətrafında sıx birləşib. Cəbhəyə yollanan oğullarımızın hər birində Vətənə olan sevgi və ruh yüksəkliyi hiss olunur. Elə bu ruh yüksəkliyi ilə Ordumuz hər gün yeni bir tarix yazır. Ermənilər elə bilirdilər ki, onlar bu torpaqlarda əbədi yaşayacaqlar. Amma bu gün şanlı Ordumuz işğalçıları əzəli torpaqlarımızdan qovur. Hesab edirəm ki, düşmənə vurulan hər bir zərbə şəhidlərimizin ruhunu şad edir.

***- Hazırda uşaqdan böyüyə kimi, hər kəs Ordumuza dəstək məqsədi ilə həmrəylik nümayiş etdirib, hərbçilərimizə sovqatlar göndərir. Sizcə bu gün Ordumuza əsl dəstək necə olmalıdır?***

- Əvvəlcə onu qeyd edim ki, bu gün Ordumuzun maddi texniki təminatı çox güclüdür. Xalqımızın birliyi və həmrəyliyi isə həqiqətən də təqdirəlayiqdir. Bu, onu göstərir ki, xalq ilə ordu arasında böyük bağlılıq və inam var. Xalqımız bununla hərbçilərimizə öz təşəkkürünü bildirməyə çalışır. Fikrimcə, belə hallarda hərbçilərimizə əsasən, mənəvi dəstək lazımdır. Mənəvi dəstək insanın ruhunun yüksəlişi deməkdir. Bizim şəhid ailələri ilə geniş əlaqələrimiz var. Tez-tez şəhid ailələri ilə görüşlər keçiririk. Bilirsiniz, insan o vaxt ölür ki, o, unudulur. İnsanı xatırlayanda, yada salanda isə o yaşayır. Bax, mənəvi dəstək budur. Mənəvi dəstək bu gün hərbçilərimizdə ruh yüksəkliyi yaradır. Xalqın birliyi, qətiyyəti elə mənəvi dəstək deməkdir. Biz Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzi olaraq hərbi hissələrdə görüşlər keçiririk. Bizim "Əsgərə məktub" layihəmiz var. Orta məktəblərdə oxuyan şagirdlərin əsgərlərə yazdıqları məktublar çox maraqlı olur. Elə oğlan uşağı var ki, onlar "salam əsgər, mən də böyüyəndə sənin kimi əsgər olmaq istəyirəm" sözlərini yazır. Balaca bir qız uşağı isə yazır ki, "salam əsgər, sən məni tanımasan da, görməsən də mən elə bilirəm ki, Azərbaycan əsgəri mənim qardaşımdır". Bax, bunun özü mənəvi dəstəkdir, mənəvi ruhdur. Xalqın birliyi mənəvi dəstəkdən keçir. Mən də bu gün mənəvi dəstəklə yanaşı, hərbi hissələrə ana sovqatı göndərirəm. Hər hansı bir hərbi hissəyə ana sovqatı göndərirəmsə elə bilirəm ki, mənim oğlum da o hərbçilərin arasındadır.

### "Torpağın bağrına o qədər güllə dəyib ki, torpaq bağırsa qulaqların tutular"

***- Həyat yoldaşınız hərbçi olub, Qarabağ uğrunda döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib. Sizin də hərbçi olmağınız həyat yoldaşınızın peşəsini davam etdirmək arzusundan irəli gəlir?***

- Biz uzun illər Moskva şəhərində yaşamışıq. Həyat yoldaşım Moskvada Magistral Qaz Xətləri üzrə direktor müavini vəzifəsində işləyirdi. Orada evimiz, işimiz və çox xoşbəxt ailəmiz var idi. 1988-ci ildə mənfur düşmənlərin Topxana meşəsini talan etməsini, Qarabağda dinc əhaliyə divan tutmasını eşidib, Vətənə qayıtdıq. Onu da qeyd edim ki, həyat yoldaşım mayor Akif Bayramov Qarabağ müharibəsində tank qoşunları üzrə komandir idi. O, 1993-cü ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə minaya düşdü və çox ağır vəziyyətdə hospitala gətirildi. Mən həmin vaxt 240 saylı məktəbdə müəllimə işləyirdim. Məktəbin direktoru mənə dedi ki, siz təcili olaraq yardım aparmaq üçün hospitala getməlisiniz. Hospitala gedəndə isə həyat yoldaşımı reanimasiyada gördüm. Təsəvvür edin ki, minaya düşdüyü üçün sinəsindən aşağı hissəsi demək olar ki, yox idi. Güclə nəfəs alırdı. Etiraf edim ki, mən həyat yoldaşımı o, halda gördükdən sonra dözmədim. Çox sarsılmışdım. Elə hey gileyləndim ki, "İlahi, çox gözəl həyatımız var idi, bizi niyə yarıyolda qoydun?". Həyat yoldaşıma "sən axı niyə özünü bu vəziyyətə saldın? Biz indi nə edəcəyik?", - deyə şikayətlənirdim. O qədər şikayətləndim ki, yoldaşım möcüzə sayəsində səsimə ayıldı və mənə dedi ki, çox deyinmə, stulu çək, yanımda əyləş. Onun ölüm ayağında dediyi sözlər məni təsirləndirdi. O dedi ki, "Mənə bir güllə dəyib və sən mənim ağrımağıma dözmürsən. Ancaq torpağın bağrına o qədər güllə dəyib ki, torpaq bağırsa qulaqların tutular". Son anında isə mənə vəsiyyət edərək dedi: "Mən bilirəm, dünyamı dəyişəcəyəm. Amma mənim hərbi libasımı sən geyinməlisən, peşəmi sən davam etdirməlisən". Həyat yoldaşımın ölümündən sonra 2 körpə övladımla tək qalsam da, özümə söz verdim ki, dərdin qarşısında əyilməyəcəyəm, dərdin kürəyini yerə vuracağam. Vətənə məhəbbət, düşmənə nifrət hissi məni daha da mətin və mübariz etdi. Həyat yoldaşımın mayor paqonunu kənara qoyub, onun hərbi formasını geyindim. Beləliklə, onun son nəfəsində etdiyi vəsiyyətini yerinə yetirdim. Əvvəlcə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində hərbi jurnalist peşəsinə yiyələndim. Döyüş bölgələrinə getdim, "Azərbaycan Ordusu" qəzetində ştatdankənar müxbir işlədim. Mən həmçinin Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində qadınlar Şurasının sədri vəzifəsində də çalışmışam. 2013-cü ilə qədər isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində hərbi qulluqçu kimi xidmət etmişəm və həmin ildən ehtiyata buraxılmışam. Hazırda isə Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin Kitabxana rəisi vəzifəsində işləyirəm.



***- Bildiyimizə görə, hər iki oğlunuz hərbçidir və hazırda cəbhə bölgəsində düşmənə qarşı döyüşür. Amma etiraf edək ki, cəbhədə döyüşən iki oğul anası olaraq, çox sakit və təmkinli görünürsünüz. Bu, yəqin ki, həyat yoldaşınızın ölümündən sonra yaranan soyuqqanlılığınızdan irəli gəlir.***

- Bəli. Soyuqqanlı görünməyim həyat yoldaşımın Qarabağ müharibəsində şəhid olmasından və hərbi sahədə çalışmağımdan irəli gəlir. Övladlarım hələ balaca yaşlarından deyirdilər ki, biz böyüyəndə hərbçi olacağıq və atamızın qisasını mütləq alacağıq. Bu gün Vətən müharibəsi dediyimiz bu savaşda hər iki oğlumun iştirak etməsi məni bir ana kimi qürurlandırır. Həyat yoldaşım şəhid olandan sonra övladlarıma dövlətimiz dayaq oldu. Onların hər ikisinin hərbi təhsilə yiyələnməsində, təlim-tərbiyəsində dövlətimizin böyük rolu var. Böyük oğlum Türkiyədə Kara Harp Okulunun, kiçik oğlum isə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin məzunu olub. Düşünürəm ki, dövlətimzin zəhmətini övladlarım bu gün Vətənə xidmətləri ilə qaytarmalıdırlar. Kiçik oğlum məzun olanda diplomunu əlimə alaraq ona dedim ki, "Oğlum, elə bir müharibə olsun ki, sənin bu diplomun paslanmasın". Həmin o müharibə 2016-cı ilə təsadüf etdi. Oğlum aprel döyüşlərindən sonra barıt qoxusu ilə evə qayıdanda sanki evimizə bir işıq, yeni nəfəs gəldi. İçimdə övladıma olan məhəbbətim birəbeş artdı. Ona görə ki, o, ən azından atasının qisasını aldı. Ana ilə oğul arasında bir ruh bağlılığı var. Əgər oğul döyüşdədir deyə, ana ağlayırsa, oğul da orada narahat olacaq. Bu gün analar möhkəm və fədakar olmalıdırlar ki, oğullar da döyüşdə möhkəm olsunlar.

### "Hər bir şəhidin qəbri bizim üçün ziyarətgahdır"

***- Əsl vətənpərvər insanlar ölümün üstünə ölməzlikləri ilə gedirlər. Torpaqlarımızın azadlığı uğrunda şəhid olan insanlar da bu qəbildəndirlər. Necə düşünürsünüz, dünyada elə bir zirvə varmı ki, şəhidlik qədər ali olsun?***

- Ölümləri ilə ölümsüzlüyə qovuşan şəhidlərimizə Allah rəhmət eləsin. Həqiqətən də ölümün də şərəflisi var. Biri var ki, evin oğlu, biri də var, bütün elin oğlu. Vətən uğrunda canını fəda etmək şərəfdir, o, hər kəsə nəsib olmur. Şəhidlərimizin Vətən uğrunda ölümü xalqımızı daha da birləşdirdi. Hansısa şəhid ailəsinin qapısını açanda elə bilirsən ki, bir doğma insanın evinə gəlmisən. Bu gün şəhidlərimiz Tanrı dərgahında ən uca zirvədədirlər. Şəhidlərimizi yad etmək hər birimizin borcudur. Hər bir şəhidin qəbri bizim üçün ziyarətgahdır.

***- Sizin vətənpərvərlik mövzusunda kitablarınız daha çoxdur. Siz həm də Azərbaycanda fəaliyyət göstərən Ali Hərbi Məktəblərin "Məktəb marş"larının müəllifi kimi tanınırsınız. İstərdik ki, söhbətimizi bir qədər də bu mövzu barəsində davam etdirək.***

- Bu mövzuda marşlar, mahnılar, kitablar yazmaq bir Tanrı vergisidir. Bu, bəlkə də Vətənə olan məhəbbətim, düşmənə olan nifrətimdən irəli gəlir. Mən Azərbaycanda fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin, Sülhməramlı Qüvvələrin, Xüsusi Mühafizə Briqadasının, Fövqəladə Hallar Akademiyasının, Xəzər Dəniz Gəmiçiliyinin, Heydər Əliyev adına Hərbi Liseyin, Xüsusi Təyinatlı Qüvvələrin marşlarının sözlərinin müəllifiyəm. Bundan başqa Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun marşını yazmaq da mənə nəsib oldu. Bildiyiniz kimi, 2018-ci ildə Əlahiddə Ümumqoşun Ordusu "Günnüt" əməliyyatı keçirdi. Bu, əks-həmlə əməliyyatı nəticəsində bir sıra yüksəkliklər və kəndlər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Yəni bu marşı yazmaq mənə nəsib oldusa, deməli, mən dünyanın ən xoşbəxt insanıyam. Mən marşlarımı öz tərcümeyi-halım hesab edirəm. Bu marşlar bir gün dünyadan köçəndən sonra məni yaşadacaq. Kursantların oxuduqları bu marşlar mənim ruhumu şad edəcək. Qeyd edim ki, mən bu fəaliyyətimə görə 2015-ci ildə Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşəm. Bundan başqa Müdafiə Nazirliyinə minnətdarlığımı bildirirəm ki, məni müxtəlif illərdə "Qüsursuz xidmətə görə" medalların hər üçü ilə təltif edib. Mən həmçinin, "Həzi Aslanov", "Əliağa Şıxlinski" və "Fədai" medalı ilə təltif olunmuşam. Onu da deyim ki, bu günə qədər mənim haqqımda iki sənədli film çəkilib.

***- Zəminə xanım, hərbçilərimizin əksəriyyəti Sizi özlərinə bir növ mənəvi ana hesab edirlər. Bu sevgi haradan qaynaqlanır?***

- Hərbi məktəbdə işlədiyim dövrlərdə kursantlarla həmişə ana-oğul münasibətim olub. Mənim ən çətin anımda onlar məktəb marşlarımı elə ürəkdən oxuyurdular ki, sanki yenidən doğulurdum. Onların bəzilərinin elçilik və toy-nişan mərasimlərində yaxından iştirak etmişəm. Hərdən elə olur ki, gənc ailələr arasında olan kiçik münaqişəni tez bir anda həll edib, necə deyərlər, yoluna qoymuşam. Bu da mənim onlara olan analıq borcumdan irəli gəlir. Yəqin ki, elə sevgi də buradan qaynaqlanır.

### Hərbi geyimdən Vətən qoxusu gəlir

***- Sizi tədbirlərdə daha çox hərbi geyimdə görürük. Bu hərbi formaya bağlılıqdır, yoxsa necə?***

- Hərbi geyim mənim üçün ən müqəddəs geyimdir. Məni soyuqdan qoruyan, heç kimə möhtac etməyən hərbi geyimim olub. Hərbi geyim, bütün geyimlərin ən gözəlidir desəm, lap yerinə düşər. Çünki hərbi geyimdən Vətən qoxusu gəlir. Düzünü desəm, mülki geyimə uyğunlaşa bilmirəm. Vətən qoxulu hərbi geyimi hər bir vətən övladına arzulayıram. Gün o gün olsun ki, "Olimpiya dünyası" qəzetinin səhifələrində də xalqımıza şanlı qələbə xəbərini çatdırasınız!

*Azər Əlizadə*

# İlqar Rəhimov yaponiyalı səfirə Bakıdakı Qran-pri barədə məlumat verib



Milli Paralimpiya Komitəsinin (MPK) prezidenti İlqar Rəhimov Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vada Cüniçi ilə görüşüb. Görüş zamanı İlqar Rəhimov 27 sentyabrdan hərbi birləşmələrimizin mövqelərinin və yaşayış ərazilərimizin Ermənistan tərəfindən ağır artilleriya atəşlərinə məruz qaldığını vurğulayıb. O bildirib ki, Azərbaycan Ordusu düşmənə qarşı uğurlu əks-hücum əməliyyatları həyata keçirərək, işğal olunmuş torpaqlarımızın bir hissəsini artıq azad edib: "Ermənistanın törətdiyi növbəti terror aktları, yaşayış ərazilərimizi atəşə tutması nəticəsində Azərbaycan tərəfindən mülki şəxslər həlak olub və müxtəlif dərəcəli bədən xəsarətləri alıb, mülki obyekt və fərdi yaşayış evləri yararsız vəziyyətə düşüb. Bu akt Ermənistanın terror ölkəsi olduğunu bir daha sübut edir".

Azərbaycanın tarixi torpaqlarının düşmənlərdən azad edilməsi, məcburi köçkünlərin ora qaytarılması uğrunda Vətən Müharibəsinə başladığını diqqətə çatdıran İlqar Rəhimov ölkəmizin haqq yolunda olduğunu və öz haqqını tələb edərək ədalətli müharibə apardığını söyləyib.

Daha sonra MPK prezidenti qonağa komitənin fəaliyyəti dövründə əldə olunan nailiyyətlər barədə, 2021-ci ilin may ayında Bakıda keçiriləcək "İbsa Judo Grand Prix Baku 2021" və gələn il təşkil olunacaq Tokio-2020 Yay Paralimpiya Oyunlarına hazırlıq barədə məlumat verib.

Komitə prezidenti Azərbaycanda əlilliyi olan uşaqların idmana cəlb edilməsi üçün 2013-cü ildə ölkədə Uşaq Paralimpiya Hərəkatının yaradıldığını da qeyd edib və bildirib ki, hər il bu hərəkatdan çıxan paralimpiyaçılar müxtəlif beynəlxalq yarışlarda ölkəmizi uğurla təmsil edirlər.

Səfir Vada Cüniçi öz növbəsində ölkəsinin paralimpiya və abilimpiya dəyərlərinə önəm verdiyini bildirib, Paralimpiya Komitəsi və Yaponiyanın paytaxtı Tokio şəhərində yerləşən Beynəlxalq Abilimpiya Federasiyası ilə əlaqələrin qurulmağını vacib hesab edərək müxtəlif sahələrdə sosial proqramlar çərçivəsində birgə iş qurulmasını dəstəklədiyini vurğulayıb. Eyni zamanda, səfir MPK ilə Yaponiya Paralimpiya Komitəsi arasında olan əməkdaşlığı yüksək qiymətləndirib. Azərbaycan paralimpiyaçılarının Yaponiyanın Şika şəhərində Tokio-2020 Yay Paralimpiya Oyunlarına hazırlıq keçməsini hər iki ölkə arasında dostluq münasibətlərinin yüksək səviyyədə olduğunu göstərdiyini qeyd edib.

Daha sonra tərəflər gələcək əməkdaşlıqla bağlı bir sıra məsələləri müzakirə ediblər.

Görüşdə Milli Paralimpiya Komitəsinin baş katibi Kamal Məmmədov və Azərbaycan Milli Abilimpiya Federasiyasının vitse-prezidenti Cavad Qasımov da iştirak ediblər.

# "Azərbaycan Ordusu yeni zəfər salnaməsi yaradır"



Azərbaycan bu gün torpağımızı işğal edən Ermənistanla müharibə aparır. Xalqımız heç vaxt imkan verməz ki, mənfur qonşularımız doğma yurdumuza sahib çıxıb, Azərbaycan ərazisində ikinci Ermənistan dövləti yaratsınlar. Bu gün onların yaşadıqları ərazilər də tarixi Azərbaycan torpaqlarıdır. Çar Rusiyası tərəfindən əzəli Azərbaycan torpaqlarında məskunlaşan ermənilər öz mənfur xislətindən heç vaxt əl çəkməyiblər. Öz havadarlarından dəstək alaraq, özgə torpaqlarında dövlət quran ermənilər XX əsrin sonlarında növbəti dəfə ərazi iddiasına düşdülər. Sovetlər birliyinin süqutundan sonra baş verən hadisələrdən yararlanaraq, Qarabağ arzusunu müvəqqəti də olsa həyata keçirə bildilər. Nəticədə Azərbaycanın 20 faizdən çox ərazisi işğala məruz qaldı. 1992-1993-cü illərdə dilbər güşəmiz olan Qarabağ düşmənlər tərəfindən işğal edildi.

Ümummilli lider Heydər Əliyev xalqın təkidi nəticəsində ikinci dəfə hakimiyyətə qayıdışı ilə ölkədə baş verən hərc-mərcliyə son qoydu. Bir sıra strateji mövqelər düşməndən azad edildi. Ümummilli lider Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Hər bir sahədə yeni yüksəliş dövrü başladı. Bu inkişaf və tərəqqi Milli Ordumuzdan da yan keçmədi. Ümummilli lider ordu quruculuğunda təcrübəli kadr siyasətini ön plana çəkdi. Vaxtilə onun göstərişi ilə hərbi məktəblərdə təhsil almış zabitləri bir araya topladı. Heydər Əliyev öz zamanında gələcəyin güclü ordusunun təməlini qoydu.

Bu gün Ümummilli liderin siyasi kursunun layiq davamçısı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev həmin ənənələri uğurla davam etdirərək, Milli Ordu quruculuğunu müasir tələblərə uyğun olaraq yeni səviyyəyə qaldırdı. Artıq Azərbaycan dünyada ən güclü ordusu olan ölkələr sırasında yer alıb. Müzəffər Ordumuz bu gün Ali Baş Komandanın əmri ilə düşmənə layiqli cavab verir, ərazilərimizi düşməndən təmizləyir. XXI əsrin bu müasir müharibəsində ən müasir silahlarla düşmənə qan udduran Azərbaycan Ordusu yeni zəfər salnaməsi yaradır. Bizim hər birimiz bu tarixin iştirakçısı və şahidiyik. Xalqımıza Qarabağ döyüşlərində ardıcıl qələbə müjdəsi verən Ali Baş Komandanın və rəşadətli Azərbaycan Ordusunun əsgəriyik. Eşq olsun, Azərbaycan əsgərinə! Yaşasın müstəqil Azərbaycan!

Qarabağ Azərbaycandır!

***Cəfər Hümbətov,***
***Respublika Yüksək İdman Ustalığı Məktəbinin direktoru***

# III Avropa Oyunlarının proqramına yeni idman növü daxil edilə bilər

***Mototrial idman növü üzrə nümayiş xarakterli yarışlar Polşanın Krakov şəhərində 2023-cü ildə keçiriləcək III Avropa Oyunlarının proqramına daxil edilə bilər.***

Bu barədə Polşa Milli Olimpiya Komitəsinin saytında məlumat verilib. Qurumun rəhbəri Andrey Krasnitski və Beynəlxalq Motosiklet Federasiyasının (FIM) prezidenti Xorxe Vieqas Avropa Oyunları çərçivəsində mototrial idman növü üzrə nümayiş xarakterli yarışların keçirilməsini müzakirə ediblər. Məlumatda bildirilib ki, yarış üçün yalnız elektrik motosikllərindən istifadə ediləcəyi planlaşdırılır. X.Vieqas artıq nümayiş turniri üçün yer ayırmaq istəyi ilə Oyunların təşkilatçıları olan Avropa Olimpiya Komitələrinə (AOK) müraciət edib. Layihənin Beynəlxalq Motosiklet Federasiyası tərəfindən maliyyələşdirilməsi və hazırlığın Polşa Avtoidman Assosiasiyası tərəfindən həyata keçirilməsi nəzərdə tutulub.

Sentyabrda III Avropa Oyunlarının Təşkilat Komitəsi yarışların ilkin proqramını təsdiqləyib. Belə ki, Oyunların proqramına kamandan oxatma, sinxron üzgüçülük, badminton, basketbol 3x3, çimərlik həndbolu, breyk-dans, kanoe (kayak və kanoe, kanoe slalom), velosiped idmanı (BMX, şose), qılıncoynatma, gimnastika, cüdo, karate, müasir beşnövçülük, dağ qaçışı, reqbi-7, atıcılıq, trampilindən tullanma (yay), idman dırmanması, stolüstü tennis, triatlon, voleybol, çimərlik voleybolu, ağırlıqqaldırma idman növləri daxil edilib.

Qeyd edək ki, birinci Avropa Oyunları 2015-ci ildə Bakıda, ikinci yarış isə ötən il Belarusun paytaxtı Minskdə təşkil edilib. Üçüncü Avropa Oyunlarının isə 2023-cü il iyunun 9-dan 24-dək Polşada keçirilməsi nəzərdə tutulub.

# Gəncədəki terror hadisəsində həlak olan insanların xatirəsi yad edilib



Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə gənclər oktyabrın 17-də Ermənistan ordusu tərəfindən atılan raket zərbəsi nəticəsində terror aktında həlak olanların xatirəsini yad ediblər.

Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi və kollektivi, o cümlədən şəhərin fəal gəncləri əraziyə gələrək gecə saatlarında həlak olanların əziz xatirəsini gül dəstələri ilə yad ediblər. Gənclər əllərində #StopArmenianTerror #KarabakhisAzerbaijan yazısı ilə plakatlar tutaraq, dünya ictimaiyyətinin diqqətinə erməni vəhşiliyini və həqiqətləri çatdırıblar.

Qeyd edək ki, 17 oktyabr Ermənistan silahlı qüvvələri tərəfindən Skud/Elbrus tipli ağır raket zərbəsi nəticəsində döyüş zonasından 60 km uzaqda yerləşən Azərbaycanın 2-ci ən böyük şəhəri Gəncədə yaşayış massivində yerləşən 20-dən çox ev tamamilə dağılıb. Hadisə nəticəsində həmçinin çox saylı evlərə ciddi ziyan dəymiş və azyaşlılar da daxil olmaqla 15 nəfər dinc sakin həlak olub.

# Karateçilər koronavirusdan yeni qorunma testini təcrübədən keçiriblər

Tokio Olimpiya Oyunları zamanı karate və cüdo yarışlarının keçiriləcəyi "Nippon Budokan" arenasında koronavirus pandemiyası baş verdikdən sonra karate üzrə ilk böyük yarış keçirilib. 1964-cü ildən fəaliyyətdə olan arenada keçirilən yarışlarda 500-dən çox karateçi iştirak edib. Çətin epidemioloji vəziyyətə görə, idmançılardan yarışlardan kənarda maska taxmaq və ayrıca qoruyucu dəbilqələri koronavirusun yayılmasının qarşısını alan xüsusi polimer ekranlarla tamamlamaq tələb olunub. Turnirin təşkilatçıları və müstəqil mütəxəssislər tərəfindən aparılan araşdırmalara görə, bu qoruyucu ekranlar sparrinq zamanı idmançılarda yoluxma riskini 98 faizə qədər azaldır.

İştirakçıların sayını azaltmaq üçün medallar yalnız kata və kumite növləri üzrə kişilər və qadınlar arasında komanda yarışlarında oynanılıb. Bundan əlavə, "Nippon Budokan"a yalnız idmançılar, komanda nümayəndələri və məhdud sayda rəsmi şəxslər qəbul edilib. Sıxlıqdan qorunmaq üçün açılış və bağlanış mərasimləri ləğv edilib.

## Beynəlxalq dərəcəli hakimimiz CEV tərəfindən yeni təyinat alıb

Azərbaycanın beynəlxalq dərəcəli hakimi Konstantin Selin Avropa Voleybol Konfederasiyası (CEV) tərəfindən yeni təyinat alıb. Həmyerlimiz Çağırış kubokunda kişi voleybolçuların yarışlarında mübarizə aparan İsrailin "Hapoel" və Türkiyənin "Halkbank" komandaları arasında keçiriləcək görüşləri idarə edəcək. Konstantin Selin turnirin 1/16 final mərhələsinin ilk oyunları çərçivəsində noyabrın 5-də Ankarada təşkil olunacaq matçın baş hakimi olacaq. Ona albaniyalı Endri Zguri kömək edəcək. Bir həftə sonra Kfar-Saba şəhərində oynanılacaq cavab görüşündə həmyerlimiz baş hakim E.Zguriyə kömək edəcək.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19